RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 87 (8966) ÇƏRŞƏNBƏ, 27 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Azərbaycan işlərini qrafikə uyğun yekunlaşdırır

Ermənistanda isə hələ heç bir işə başlanılmayıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında ticari-iqtisadi sahədə qarşılıqlı fəaliyyətin yaxşı səviyyədə olduğunu qeyd edərək, daha əvvəl əldə edilmiş razılıqların yerinə yetirilməsindən məmnunluğunu bildirdi.

2

## Hans Henri KLUGEN: "İlham Əliyevin beynəlxalq diplomatiyada qlobal liderliyini yüksək qiymətləndiririk"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlığın olduğunu vurğuladı. Dövlətimizin başçısı Ümumdünya Səhiyyə Təşkilatının COVID-19-a qarşı mübarizədə Azərbaycana göstərdiyi davamlı dəstəyə görə təşəkkürünü bildirdi, ÜST-ün COVID-19-a qarşı mübarizəyə dair təqdim etdiyi tövsiyələrin ölkəmiz üçün dəyərli olduğunu qeyd etdi.

2

## Azərbaycan ilə Latviya arasında əlaqələrin inkişafı məmnunluq yaradır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Latviya Respublikasının Baş nazirinin müavini, müdafiə naziri Artis Pabriksi qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Latviya arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu, yüksəksəviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd edildi.

2



# Sülh, yoxsa "Dəmir yumruq"?

## İlham Əliyev Ermənistana seçim üçün son şans verdi

4



## Zərifə Əliyeva fenomeni

Tanınmış ziyalı nəslinin layiqli davamçısı, sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ana, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq alim və xeyirxah insan kimi şərəfli bir ömür yaşamış Zərifə xanımın həyatının hər bir anı mənəvi kamillik və müdriklik məktəbidir. Geniş dünyagörüşü, fitri istedadı və intellekti ilə seçilmiş bu böyük insan ömrünü zərrə-zərrə xalqının və vətəninin gələcəyi üçün şam kimi əritmiş, insanlara sevgisi, geniş dünyagörüşü və dərin bilikləri sayəsində böyük uğurlara imza atmışdır.

5



## Ədəbiyyatımızın Mir Cəlal zirvəsi

Görkəmli Azərbaycan yazıçısı, pedaqoq və alimi Mir Cəlal Paşayevin "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Füzuli sənətkarlığı", "Cəlil Məmmədquluzadənin realizmi haqqında", "Ədəbiyyatşünaslığın əsasları", "XX əsr Azərbaycan ədəbiyyatı" kimi tədqiqat və dərsliklərdən, "Dirilən adam", "Bir gəncin manifesti", "Açıq kitab", "Yolumuz hayanadır?" və başqa əsərlərdən ibarət elmi-ədəbi yaradıcılığı zamanın sınağından üzüağ çıxmışdır. Dəyişən epoxa, yenilənən münasibət və baxışlar bu dəyərli irsdən heç nəyi əskildə bilməmişdir.

7

## "Şuşa" adından istifadə qanunla tənzimlənəcək



Aprelin 26-da Milli Məclisin yaz sessiyasında növbəti iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, bir neçə gün öncə ölkəmizin və xalqımızın həyatında çox mühüm bir hadisə baş verib. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı olub. Qurultayın 44 günlük Vətən müharibəsinin son döyüşlərinin baş verdiyi bu şəhərdə keçirilməsinin və "Zəfər qurultayı" adı daşımasının dərin rəmzi mənaları var.

Sahibə Qafarova bildirib ki, Prezident İlham Əliyev qurultayda geniş və dərin məzmunlu nitq söylədi.

3

## Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

4

## Regionda mövcud olan vəziyyət müzakirə edilib

4

## Qədirbilən xalqımıza minnətdaram

6

## Təhlükə saçan işıq dirəkləri

6

# Həmrəyliyin Şuşa zirvəsi



4

# Azərbaycan işlərini qrafikə uyğun yekunlaşdırır

## Ermənistanda isə hələ heç bir işə başlanılmayıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı ölkələrimiz arasında ticari-iqtisadi sahədə qarşılıqlı fəaliyyətin yaxşı səviyyədə olduğunu qeyd edərək, daha əvvəl əldə edilmiş razılıqların yerinə yetirilməsindən məmnunluğunu bildirdi.

Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının fəaliyyətinə toxundu və komissiyanın iclasında görülmüş işlərin nəzərdən keçiriləcəyinə, həmçinin ənənəvi əməkdaşlıq sahələrindən başqa potensial istiqamətlərin, o cümlədən ticarət və xidmətlərin həcminin daha da genişləndirilməsi məsələlərinin müzakirə ediləcəyinə, əməkdaşlıq üçün yeni sahələrin müəyyənləşdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Dövlət başçısı Aleksey Overçukun ölkəmizə səfəri zamanı Rusiya-Azərbaycan-Ermənistan Baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli komissiyanın fəaliyyətinin və ilk növbədə nəqliyyat-kommunikasiya xətlərinin açılması məsələlərinin müzakirə ediləcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev bununla əlaqədar dəmir yolunun Azərbaycan ərazisində artıq 60 kilometrlik hissəsinin tikildiyini və gələn il tikintinin tamamlanacağını bildirdi. Avtomobil yolu ilə də bağlı Azərbaycan tərəfindən işlər qrafikə tam uyğun şəkildə aparılır. Əfsuslar olsun ki, Ermənistan tərəfindən bunlarla bağlı heç bir işə başlanılmayıb, Ermənistan öz ərazisindən keçməsi nəzərdə tutulan avtomobil yolu marşrutunun coğrafi koordinatlarını belə qeyd etməyib. Azərbaycanın bu məsələni dəfələrlə qaldırmasına baxmayaraq, Ermənistan tərəfindən bununla bağlı heç bir cavab gəlməyib.

Aleksey Overçuk Rusiya ilə Azərbaycan arasında bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edildiyini məmnunluqla xatırlatdı. Qonaq Azərbaycan və Rusiya prezidentləri tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"nin önəmini vurğuladı.

Görüşdə ticari-iqtisadi, nəqliyyat, tranzit, logistika, maliyyə, bank, energetika, neft-qaz sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

# Hans Henri KLUGEN: "İlham Əliyevin beynəlxalq diplomatiyada qlobal liderliyini yüksək qiymətləndiririk"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlığın olduğunu vurğuladı. Dövlət başçısı Ümumdünya Səhiyyə Təşkilatının COVID-19-a qarşı mübarizədə Azərbaycana göstərdiyi davamlı dəstəyə görə təşəkkürünü bildirdi, ÜST-ün COVID-19-a qarşı mübarizəyə dair təqdim etdiyi tövsiyələrin ölkəmiz üçün dəyərli olduğunu qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda COVID-19-la bağlı vəziyyət çox müsbətdir, həyata keçirilmiş tədbirlər nəticəsində pandemiyanın çətin dövründə vəziyyət nəzarətdə saxlanılıb. Azərbaycan keçən ilin əvvəlində vaksinasiyaya başlayan ilk ölkələrdən biri olub, indiyədək ölkəmizdə 13 milyondan artıq vaksin istifadə edilib. Azərbaycanda vaksinasiya prosesi anlayışla qarşılanıb. Dövlət başçısı bunun vətəndaşlarımız tərəfindən dövlətin həyata keçirdiyi siyasətə etimadın bir nümunəsi olduğunu dedi.

Ölkəmizdə pandemiya ilə bağlı məhdudiyyətlərin tədricən aradan qaldırıldığını deyən Prezident İlham Əliyev bildirdi ki, çox az sayda məhdudiyyətlər qalıb, bunu da Azərbaycan ictimaiyyəti anlayışla qarşılayır.

Azərbaycanın COVID-lə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətini daim dəstəklədiyini bildirən dövlət başçısı vurğuladı ki, həm Qoşulmama Hərəkatında, həm də BMT Baş Assambleyasında çıxışları zamanı Ümumdünya Səhiyyə Təşkilatının COVID-19-a qarşı mübarizədə rolunu xüsusilə qeyd edib.

Prezident İlham Əliyev dedi ki, Azərbaycanda pandemiya nəticəsində yaranan sosial-iqtisadi məsələlərin aradan qaldırılması istiqamətində də dövlətimiz tərəfindən zəruri tədbirlər görülüb və hazırda bu sahədə də vəziyyət sabitdir.

Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesusun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tedros Adhanom Gebreyesusa çatdırmağı xahiş etdi.

Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru kimi Azərbaycana ilk dəfə gəldiyini vurğulayan Hans Henri Kluge səfərinin Azərbaycanla BMT arasında tərəfdaşlığın 30 illiyinin qeyd olunduğu bir dövrə təsadüf etməsi baxımından önəmini vurğuladı. Hans Henri Kluge dedi: "Mən Sizin beynəlxalq diplomatiyada qlobal liderliyinizi yüksək qiymətləndirir və bu münasibətlə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizin davamlı inkişaf istiqamətində çox mühüm fəaliyyətiniz olduqca önəmlidir. Çünki məhz Sizin şəxsi liderliyiniz sayəsində COVID-19 pandemiyasına qarşı beynəlxalq həmrəylik təbliğ edilib və bu məsələ BMT-dən sonra dünyanın ən böyük beynəlxalq təşkilatının - Qoşulmama Hərəkatının gündəliyinin əsas məsələsi olub".

Qonaq Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin bir il uzadılmasını dövlət başçısına olan etimadın göstəricisi kimi dəyərləndirdi və bu münasibətlə də təbriklərini çatdırdı.

Hans Henri Kluge Azərbaycanla əməkdaşlığın çox uğurlu olduğunu vurğuladı və rəhbərlik etdiyi təşkilatın bu əməkdaşlığın bundan sonra da davam etdirilməsi istiqamətində səylər göstərəcəyini bildirdi. O, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun 2020-ci ilin mayında koronavirusla mübarizəyə həsr olunmuş onlayn Zirvə görüşünə toxunaraq, məhz Azərbaycan Prezidentinin rəhbərliyi sayəsində həmin sammit zamanı ÜST-ün rolunun yüksək qiymətləndirildiyini dedi, eyni zamanda humanitar və tibbi ehtiyaclar üzrə informasiya bazasının yaradılmasına və ÜST vasitəsilə Qoşulmama Hərəkatının COVID-dən ən çox əziyyət çəkmiş 10 ölkəsinə Azərbaycanın 10 milyon dollar məbləğində vəsait yönəltdiyinə görə minnətdarlığını bildirdi.

Qonaq dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə BMT Baş Assambleyasının COVID-19-la mübarizəyə həsr edilən xüsusi sessiyasını, Prezident İlham Əliyevin BMT-nin İnsan Hüquqları Şurası çərçivəsində, həmçinin BMT Baş Assambleyasında vaksinlərin ədalətli, bərabər bölgüsünə dair qətnamənin təşəbbüskarı olduğunu, Azərbaycanın Türk Şurası çərçivəsində Zirvə toplantısının gündəliyinə də COVID-ə qarşı mübarizə məsələsini daxil etdiyini vurğuladı.

Hans Henri Kluge Azərbaycanın COVID-19-a qarşı milli səviyyədə həyata keçirdiyi tədbirlərin də çox təqdirəlayiq olduğunu bildirdi, Azərbaycanda COVID-lə bağlı vəziyyətin daim nəzarətdə saxlanıldığını, dövlətimiz tərəfindən zəruri və ardıcıl tədbirlər görüldüyünü qeyd etdi. O, həmçinin Azərbaycanın həyata keçirdiyi vaksinasiya siyasətinin də çox uğurlu olduğunu bildirdi.

Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan ilə əməkdaşlığı bundan sonra da davam etdirmək niyyətində olduğunu dedi. Təşkilatın Azərbaycanda hazırda səhiyyə sistemində aparılan islahatlara yaxından töhfə verməyə hazır olduğunu deyən qonaq bildirdi ki, ölkəmizdə rəqəmsal və elektron səhiyyə sistemlərinin qurulması istiqamətində görülən tədbirlər də çox müsbətdir.

Hans Henri Kluge qeyd etdi ki, Azərbaycanın işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirəcəyi səhiyyə sisteminin qurulması prosesində, xüsusilə rəqəmsal səhiyyə sisteminin yaradılmasında Ümumdünya Səhiyyə Təşkilatı töhfəsini verməyə və Azərbaycan ilə yaxından əməkdaşlığa hazırdır. Vurğuladı ki, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq çərçivəsində səhiyyə xidmətlərini təqdim edən regional mərkəzlərdən birinə çevrilə bilər.

# Azərbaycan ilə Latviya arasında əlaqələrin inkişafı məmnunluq yaradır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Latviya Respublikasının Baş nazirinin müavini, müdafiə naziri Artis Pabriksi qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Latviya arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu, yüksəksəviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd edildi. İqtisadiyyat, ticarət, investisiya, nəqliyyat sahələrində əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Azərbaycan-NATO əlaqələrinə toxunuldu, Prezident İlham Əliyevin ötən il NATO-nun Brüsseldəki mənzil-qərargahına səfəri, Baş katib Yens Stoltenberq ilə görüşü və Şimali Atlantika Şurasının iclasında çıxışı xatırlandı, Azərbaycanın NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasında iştirakı vurğulandı.



Görüşdə eyni zamanda Azərbaycanın Avropa İttifaqı ilə də əlaqələrinin uğurla inkişaf etdiyi bildirildi, bu baxımdan ötən il keçirilən Avropa İttifaqının Şərq Tərəfdaşlığının Sammitinin əhəmiyyəti qeyd edildi.

Qonaq ikinci Ermənistan-Azərbaycan müharibəsində əldə etdiyimiz Qələbə münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

# Bakıda Azərbaycan ilə Rusiya arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 20-ci iclası keçirilib

Aprelin 26-da Bakıda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 20-ci iclası keçirilib.





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, komissiyanın Azərbaycan tərəfdən həmsədri Şahin Mustafayevin və Rusiya Federasiyası Hökuməti sədrinin müavini, komissiyanın Rusiya tərəfdən həmsədri Aleksey Overçukun sədrlik etdikləri iclasda hər iki ölkənin müvafiq dövlət qurumlarının səlahiyyətli nümayəndələri iştirak ediblər.

İclasda gündəlikdə duran məsələlər, həmçinin Azərbaycan ilə Rusiya arasında ticari-iqtisadi, nəqliyyat-tranzit, sərmayə qoyuluşu, sənaye, enerji, kənd təsərrüfatı və bir çox digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri geniş müzakirə olunub.

Azərbaycan-Rusiya dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. İki ölkə arasında çox geniş müqavilə-hüquq bazasının mövcud olduğu bildirilərək, cari ilin fevralında dövlət başçıları tərəfindən imzalanan müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin dövlətlərarası münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırdığı vurğulanıb.

Azərbaycan-Rusiya ticari-iqtisadi əlaqələrinin çox müsbət dinamikaya malik olduğu diqqətə çatdırılaraq, ticarət dövriyyəsinin 2021-ci ildə 12 faizdən çox artaraq 3 milyard ABŞ dollarına çatdığı məmnunluqla qeyd edilib. Bu müsbət tendensiyanın cari ilin ilk kvartalında da davam etdiyi bildirilərək qarşılıqlı ticarətin 8 faizə yaxın artdığı vurğulanıb.

Qarşılıqlı investisiya sahəsində əməkdaşlığın genişləndiyi diqqətə çatdırılıb. Bu baxımdan mütəmadi işgüzar missiyaların, həmçinin Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının rolu müsbət qiymətləndirilib.

İclasda uğurla həyata keçirilən müştərək sənaye layihələrinin əhəmiyyəti vurğulanıb. Rusiya şirkətlərinin Azərbaycanın sənaye parklarında həyata keçirilən layihələrdə iştirak imkanları nəzərdən keçirilib. Rusiya şirkətlərindən işğaldan azad edilmiş ərazilərdə həyata keçirilməsi üçün 17 layihə üzrə müraciətlərin daxil olduğu bildirilib.

Qeyd edilib ki, kənd təsərrüfatı sahəsində əməkdaşlıq yaxşı dinamikaya malikdir. 2020-ci illə müqayisədə ötən il Azərbaycandan Rusiyaya meyvə-tərəvəz ixracının 6,3 faiz artdığı məmnunluqla bildirilib. Cari ilin ilk kvartalında isə 7 faiz artımın qeydə alındığı vurğulanıb.

Nəqliyyat-logistika sahəsində əməkdaşlığın səviyyəsi yüksək dəyərləndirilərək bu sahədə geniş imkanların açıldığı diqqətə çatdırılıb. İki ölkə arasında avtomobil daşımalarının həcminin ötən il 6,6 faiz, tranzit daşımalarının isə 14,3 faiz artdığı xüsusi vurğulanıb. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyətinə toxunularaq layihə çərçivəsində görülən işlərdən bəhs olunub. Bildirilib ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə, dəhliz yalnız iştirakçı deyil, bu marşrut ilə ixrac-idxal əməliyyatlarını həyata keçirən digər ölkələrin də inkişafında müsbət rol oynayacaq, ticari-iqtisadi əlaqələrini genişləndirəcək.

Avtomobil daşımalarının həcminin davamlı şəkildə artmasının Azərbaycan-Rusiya sərhədində gömrük-sərhəd infrastrukturunun təkmilləşdirilməsini zəruri etdiyi diqqətə çatdırılıb. Hər iki ölkənin ərazisində gömrük-sərhəd buraxılış məntəqələrində həyata keçirilən tikinti-quraşdırma işlərinin cari vəziyyəti nəzərdən keçirilib, bu istiqamətdə fəaliyyətin sinxronlaşdırılmasının əhəmiyyəti xüsusi vurğulanıb.

Enerji sahəsinin müxtəlif istiqamətlərində əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub. İki ölkənin enerji sistemlərinin vahid sinxron zonasında paralel iş rejimində fəaliyyət göstərdiyi məmnunluqla qeyd edilib.

İki ölkə arasında humanitar sahədə əlaqələrin yüksək səviyyədə olduğu vurğulanıb. Azərbaycanda rus dilində tədris keçən 340-a yaxın məktəbin olduğu diqqətə çatdırılıb. Cari ilin fevralında Moskvada Azərbaycan Günlərinin təşkil edilməsinin, mart ayında isə Azərbaycanda iki ölkə gənclərinin forumunun keçirilməsinin əhəmiyyəti qeyd olunub. Bu cür tədbirlərin xalqların bir-biri ilə daha da yaxınlaşmasına, insanlar arasında münasibətlərin möhkəmləndirilməsinə müsbət təsir göstərdiyi vurğulanıb.

Koronavirus pandemiyasının mənfi təsirinə məruz qalan turizm sahəsində əməkdaşlığın əvvəlki səviyyəsinin tədricən bərpa olunduğu məmnunluqla vurğulanıb. Cari ilin birinci kvartalında Azərbaycana gələn Rusiya vətəndaşlarının sayının 2020-ci ilin eyni dövrü ilə müqayisədə 174 faiz artdığı bildirilib.

Sonda Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 20-ci iclasının protokolunu imzaladılar.

Həmçinin Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında müqavilə və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Rusiya Federasiyasının "Kiçik və Orta Sahibkarlığın İnkişafı üzrə Federal Korporasiyası" Səhmdar Cəmiyyəti arasında niyyət protokolu imzalanıb.

## Milli Məclisin iclasında

# "Şuşa" adından istifadə qanunla tənzimlənəcək

Aprelin 26-da Milli Məclisin yaz sessiyasında növbəti iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, bir neçə gün öncə ölkəmizin və xalqımızın həyatında çox mühüm bir hadisə baş verib. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı olub. Qurultayın 44 günlük Vətən müharibəsinin son döyüşlərinin baş verdiyi bu şəhərdə keçirilməsinin və "Zəfər qurultayı" adı daşımasının dərin rəmzi mənaları var.





Sahibə Qafarova bildirib ki, Prezident İlham Əliyev qurultayda geniş və dərin məzmunlu nitq söylədi. Prezidentin hər bir azərbaycanlı, bizim hər birimiz üçün proqram xarakteri daşıyan bu nitqi xalqımızın həyatının mühüm hadisələrinə işıq saldı, qarşıdakı dövr üçün əsas vəzifələri müəyyən etdi. Prezident İlham Əliyev müzəffər xalqın rəhbəri, qalib dövlətin başçısı kimi bir daha bəyan etdi: "Biz faşizmi məhv etdik. Biz Cənubi Qafqazı faşizmdən xilas etdik... Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz".

Sahibə Qafarova deputatlara son bir həftə ərzində Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı baxımından vacib olan səfər və görüşlər barədə də qısa məlumat verib. Bildirib ki, aprelin 19-da və 20-də onun rəhbərliyilə Milli Məclisin nümayəndə heyəti Gürcüstanda rəsmi səfərdə olub. Nümayəndə heyətimizin səfəri Tbilisi şəhərinin Heydər Əliyev parkında xalqımızın Ümummilli Liderinin abidəsini ziyarətlə başlayıb.

Aprelin 19-da nümayəndə heyətinin Gürcüstan parlamentinin Sədri Şalva Papuaşvili, Gürcüstan Prezidenti Salome Zurabişvili, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və Gürcüstan-Azərbaycan parlamentlərarası dostluq qrupu ilə görüşləri olub.

Görüşlərdə Azərbaycanla Gürcüstan arasında dostluq əlaqələrinin inkişafında Ulu öndər Heydər Əliyevin xidmətləri xatırlanıb, bu sahədə başlanmış işlərin cənab Prezident İlham Əliyev və Gürcüstan dövlətinin rəhbərliyi tərəfindən uğurla davam etdirildiyi qeyd olunub. Ölkələrimizin müxtəlif sahələrdə səmərəli əməkdaşlığından məmnunluq ifadə olunub. Dövlətlərarası əlaqələrin möhkəmlənməsində parlamentlərin xüsusi rolu qeyd edilib. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətindən danışılıb.

Görüşlərdə Sahibə Qafarova 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın 30 illik erməni işğalına son qoyması və ərazi bütövlüyünü bərpa etməsi, eləcə də postmünaqişə dövründə Cənubi Qafqazda yeni reallıqların və imkanların yaranması barədə danışıb.

Spiker Vətən müharibəsi zamanı Gürcüstanın tutduğu ədalətli mövqeyə və dəstəyə görə təşəkkürümüzü də ifadə edib.

Milli Məclisin Sədri qeyd edib ki, Gürcüstana rəsmi səfərin gedişində bir sıra digər tədbirlər də keçirilib. Nümayəndə heyətimiz Azərbaycan səfirliyində olub, Qəhrəmanlar Memorialını, böyük Azərbaycan ədibi və ictimai xadimi Mirzə Fətəli Axundovun adını daşıyan Azərbaycan Mədəniyyəti Muzeyini, həmçinin Gürcüstan Milli Muzeyini də ziyarət edib.

Azərbaycan parlamentinin Sədri aprelin 20-də ölkəmizdə rəsmi səfərdə olan Qırğız Respublikasının Prezidenti Sadır Japarovla görüşündən də danışıb. Bildirib ki, görüşdə ölkələrimiz arasında qədim dostluq və qardaşlıq əlaqələrinin müstəqillik dövründə yeni səviyyəyə yüksəldiyi qeyd edilib. İki ölkənin dövlət başçılarının imzaladığı Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin, Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandumun və digər sənədlərin əhəmiyyəti vurğulanıb.

Sonra iclasda cari məsələlərin müzakirəsinə başlanıb. Müzakirələrdə komitə sədri Zahid Oruc, deputatlardan Vahid Əhmədov, Məlahət İbrahimqızı, Tahir Kərimli, İlham Məmmədov, Əli Məsimli, Ceyhun Məmmədov, Bəhruz Məhərrəmov, Jalə Əliyeva, Elman Nəsirov çıxış ediblər.

Deputatlar bu günlərdə Prezident İlham Əliyevin iştirakı ilə Şuşa şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər qurultayı ilə bağlı fikirlərini bölüşüblər. Qurultayın Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun düşmən işğalından azad etdiyi, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində keçirilməsinin böyük sevinc və qürur hissi doğurduğunu bildiriblər. Prezident İlham Əliyevin qurultayda səsləndirdiyi fikirlərin, qarşıya qoyduğu hədəflərin vacibliyini vurğulayıblar. Bildirilib ki, 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranan yeni reallıqlar və bundan irəli gələn çağırışların yerinə yetirilməsi Azərbaycanın dünya miqyasında nüfuzunun artmasına xidmət edir.

İclasda ilk olaraq Azərbaycan Respublikası Hesablama Palatasının illik hesabatı müzakirə olunub. Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Palatanın 2021-ci il üzrə hesabatını təqdim edib.Qeyd olunub ki, Hesablama Palatasının 20 illiyinə təsadüf edən bu hesabat "Hesablama Palatası haqqında" qanunun tələbləri və beynəlxalq miqyasda qabaqcıl təcrübələrə uyğun hazırlanıb. Palatanın 2021-ci il üzrə fəaliyyətinin hesabatı Strateji Planda nəzərdə tutulmuş 2 yekun və 9 aralıq nəticə üzərində hazırlanıb. Planın əsas məqsədi Hesablama Palatasının dövlətimiz, ölkəmiz və vətəndaşlarımız üçün güvənilən və etibarlı ali audit orqanına çevrilməsidir. Hesabatda ilk dəfə olaraq auditlərin dəyəri, dəyər zənciri barədə məlumat verilməklə, Hesablama Palatasının həyata keçirdiyi auditlərin təsirlərinin ölçülməsi aparılıb.

Hesabatda əvvəlki illərdə nəzarət obyekti olmuş qurumlarda yenidən nəzarət tədbirinin keçirilməsi zamanı təkrarlanan, eyni zamanda qabaqlayıcı tədbirlərin görülməsi ilə aradan qaldırılmış nöqsanlar barədə, habelə nəzarət obyektinin adları göstərilməklə audit təsirinin məqbul və kafi olması ilə bağlı məlumatlar verilib. Sənədə dövlət maliyyəsində izlənmiş müsbət meyillər barədə də məlumatlar daxil edilib.

Qeyd olunub ki, ötən il "Hesablama Palatası haqqında" qanuna uyğun olaraq hər 3 nəzarət tədbiri forması tətbiq olunub və 42 audit, 2 monitorinq, 2 analitik fəaliyyət həyata keçirilib. Palata tərəfindən kənar dövlət maliyyə nəzarət tədbirləri keçirilərkən dövlət investisiyalarına, dövlət satınalmalarına, maliyyə hesabatlarına, dövlət proqramlarına, real sektorda nəqliyyat və yol infrastrukturuna, COVID-19-a ayrılmış vəsaitlərə, məcburi köçkünlərin və müharibə iştirakçılarının şəraitinin yaxşılaşdırılması ilə bağlı sahələrə daha çox diqqət ayrılıb.

Hesabat ilində Hesablama Palatası tərəfindən 4 səmərəlilik, 11 maliyyə və 27 uyğunluq auditi həyata keçirilib. Vüqar Gülməmmədov bildirib ki, aparılmış nəzarət tədbirləri nəticəsində aşkar edilmiş maliyyə pozuntularının məbləğinin 80,1 mln. manat olduğu müəyyən edilib. Ümumilikdə 2021-ci ildə aparılmış nəzarət tədbirləri ilə aşkar edilmiş pozuntu məbləğinin cəmi 35,7 mln. manatı üzrə pul və natura ifadəsində bərpası ilə bağlı tədbirlər müəyyən olunub. Həmin məbləğin 30,8 mln. manatının hesabat ilində bərpası təmin edilib, qalan 4,9 mln. manatının bərpası ilə bağlı həyata keçiriləcək tədbirlər cari ildə diqqətdə saxlanılmaqla məlumatlar növbəti hesabata daxil ediləcəkdir.

Qeyd olunub ki, digər maliyyə pozuntuları Vahid Büdcə Təsnifatı ilə müəyyən edilmiş istiqamətlərə əməl edilməməsidir. Hesabat ilində bu istiqamət üzrə maliyyə pozuntuları 9 obyekt üzrə qeydə alınmaqla 3,5 mln. manatı əhatə edib. Ümumilikdə nəzarət tədbirləri keçirilmiş qurumlar tərəfindən hesabat ilində pul, əvəzləşmə və natura formasında olmaqla 32,0 mln. manat məbləğində vəsaitin bərpası, hüquq-mühafizə orqanlarına göndərilmiş materiallar üzrə dövlətə dəymiş ziyanla bağlı 2,2 mln. manatın ödənilməsi təmin edilib.

Palata sədri deyib ki, ali audit orqanları dünya təcrübəsində korrupsiyaya qarşı mübarizə sahəsində xüsusi rola malik orqanlardır və Hesablama Palatası bu istiqamətdə fəaliyyətini hesabat ilində də davam etdirib. 2021-ci ilin İş planı ilə aparılmış auditlərdən 2-si üzrə materiallar prokurorluq orqanlarına təqdim edilib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Hesablama Palatasının hesabatı ilə bağlı komitənin rəyini səsləndirib. Komitə sədri diqqətə çatdırıb ki, 2021-ci il bütün sahələrdə iqtisadi artımın qeydə alındığı il olub. Belə ki, 2021-ci ildə ÜDM 5.6%, qeyri-neft sektorunda ÜDM 7.2%, qeyri-neft sənayesində məhsul istehsalı isə 20% artıb, Tədiyyə Balansının Cari Əməliyyatlar hesabında 8.3 mlrd dollarlıq profisit yaranıb. COVID-19 pandemiyasına qarşı mübarizə tədbirləri üçün 800.8 mln manat xərclənib. Dövlət büdcəsinin gəlirləri 25.427 mlrd proqnoza qarşı 26.396 mlrd manat və ya 1 milyard manat artıq icra edilib. Dövlət büdcəsinin xərcləri isə 27.422 mlrd, proqnozun 96.1%-i həcmində və ya 2020-ci ilə nisbətən 1 mlrd manat çox icra edilib. Qeyd olunan göstəricilər Palatanın fəaliyyət dairəsinin 2021-ci ildə potensial olaraq daha da artdığını deməyə imkan verir.

Tahir Mirkişili qeyd edib ki, ilk dəfə olaraq Palatanın fəaliyyəti barədə hesabatı daha peşəkar və əhatəli qiymətləndirmək üçün İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən 10 indikator hazırlanıb. Komitə sədri builki hesabatda ilk dəfə olaraq maliyyə auditləri üzrə müsbət rəy almış dövlət orqanlarının siyahısının dərc edildiyini, bu siyahıda Milli Məclisin 1-ci yerdə qərarlaşdığını xüsusi qeyd edib. Bunu Milli Məclis rəhbərliyinin maliyyə fəaliyyətindəki şəffaflığa və səmərəliliyə nail olmasına verilən qiymət kimi dəyərləndirib.

Təqdim edilmiş hesabat verilən təklif və tövsiyələrlə birlikdə ümumi olaraq məqbul hesab edilib.

Sonra hesabat ətrafında müzakirələr aparılıb. Komitə sədrləri Qənirə Paşayeva, Siyavuş Novruzov, deputatlardan Qüdrət Həsənquliyev, Rəşad Mahmudov, Əli Məsimli, Musa Qasımlı, Soltan Məmmədov, Vahid Əhmədov, Naqif Həmzəyev, Vüqar Bayramov hesabatla bağlı fikirlərini, qeyd və təkliflərini bildiriblər. Hesablama Palatasının sədri Vüqar Gülməmmədov səsləndirilən fikirlərə münasibət bildirib, sualları cavablandırıb.

Hesablama Palatasının 2021-ci il üzrə hesabatı nəzərə alınıb.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov mahiyyətcə bir-birinə yaxın olan iki məsələ - "Narkoloji xidmət və nəzarət haqqında" qanunda dəyişiklik edilməsi barədə, habelə "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə qanun layihələri haqqında üçüncü oxunuşda məlumat verib.

Təqdim olunan layihələrdə bir sıra kateqoriya şəxslərin, o cümlədən müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların - çağırış dövründə, həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların - ildə bir dəfədən az olmayaraq, kadr zabit heyətinə könüllü daxil olanların - müvafiq əmr imzalanmazdan əvvəl, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanların - bağlaşma imzalanmazdan əvvəl icbari narkoloji müayinədən keçirilməsi təklif edilir.

Səhiyyə komitəsinin və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin müsbət rəyləri səsləndirildikdən sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Daha sonra iclasda Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və Cinayət Məcəlləsində dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələri müzakirə olunaraq təsdiq olunub.

Fasilədən sonra gündəlikdəki məsələlərin müzakirəsi davam etdirilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Sərhəd mühafizə orqanları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, Azərbaycan Respublikasının Dövlət Sərhədinin mühafizəsinin və toxunulmazlığının daha keyfiyyətli təşkil edilməsi məqsədi ilə Prezidentin 2021-cı il 23 aprel tarixli fərmanı ilə "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" 2002-ci il 12 dekabr tarixli fərmanında dəyişiklik edilib. Həmin dəyişikliyə əsasən, dövlət sərhəd mühafizə orqanlarında yeni silahlı birləşmə - "Xüsusi hava əməliyyatları qüvvələri" yaradılıb. Bununla əlaqədar yuxarıda adıçəkilən qanunun 1-ci və 24-cü maddələrinə uyğunlaşdırma xarakterli dəyişiklik nəzərdə tutulub.

Qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Peşə təhsili haqqında" qanuna təklif olunan dəyişiklik barədə məlumat verib. Qanun layihəsi "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Prezidentin 2019-cu il 14 fevral tarixli sərəncamında dəyişiklik edilməsi barədə" Prezidentin 11 noyabr 2021-ci il tarixli sərəncamına uyğun olaraq hazırlanıb. Qanuna edilən dəyişiklik peşə təhsili sahəsində nəticələrə əsaslanan təqaüd sisteminin qurulması və peşə təhsili müəssisələrində əyani təhsil alan tələbələrə təqaüdlərin onların qiymətləndirmə yarımil nəticələrinə görə verilməsinin tənzimlənməsi məqsədi daşıyır.

Deputatlar Vüqar Bayramov, Etibar Əliyev, Musa Qasımlı, Tural Gəncəliyev, Fatma Yıldırım, Rüfət Quliyev sənəd barədə fikirlərini səsləndiriblər.

Qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Sahibkarlıq fəaliyyəti haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri ilə bağlı məlumat verib. Bildirib ki, ölkə Prezidenti tərəfindən təqdim edilmiş hər iki sənəd dörd komitənin videokonfrans formatında keçirilmiş birgə iclasında geniş müzakirə olunub. Cari ilin "Şuşa ili" elan olunduğunu deyən birinci vitse-spiker bununla əlaqədar bir çox milli və beynəlxalq tədbirlərin həyata keçirildiyini qeyd edib.

Diqqətə çatdırılıb ki, "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanuna "Şuşa" adından istifadə etmək üçün xüsusi qaydaların tətbiq edilməsi məqsədilə qanuna 3-1-ci maddənin əlavə edilməsi təklif olunur. Yeni maddədə nəzərdə tutulan hallarla bağlı Şuşa Şəhəri Dövlət Qoruğu öz adından və rəsmi "Şuşa" adından istifadə etməkdə müstəsna hüquqa malikdir. Əlavəyə əsasən, hüquqi şəxslərin, o cümlədən media subyektlərinin adlarında, mükafatların və təltiflərin adlarında, yerli, ölkə və ya beynəlxalq səviyyəli tədbirlərin, o cümlədən idman və digər yarışların, konsertlərin, festivalların, sərgilərin, konfransların, seminarların adlarında, kommersiya və reklam məqsədilə, əmtəə nişanlarında və coğrafi göstəricilərdə "Şuşa" sözündən istifadəyə yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun razılığı ilə yol verilir. Eyni zamanda, Şuşa şəhərində mövcud abidələrin tam həcmdə qorunması məqsədilə bu qanunun 7.5-ci maddəsindən "arxeoloji" sözünün çıxarılması təklif edilir.

Komitə sədri Əli Hüseynli bildirib ki, yuxarıda qeyd olunanlarla əlaqədar bir sıra qanunlara uyğunlaşdırma xarakterli düzəlişlərin edilməsi də nəzərdə tutulub.

Bununla bağlı çıxış edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Sahibkarlıq fəaliyyəti haqqında" qanuna bəzi sahibkarlıq fəaliyyəti növlərinin Şuşada qadağan olunmasını nəzərdə tutan dəyişiklik təklif olunduğunu bildirib. Qanunun 5-ci maddəsinə "və ya onun ayrı-ayrı növlərinin qadağan olunması" sözləri əlavə edilir.

Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva çıxış edərək Şuşa şəhərində mövcud abidələrə xüsusi qayğı və həssaslıqla yanaşılmasının önəmli olduğunu söyləyib və bunu nəzərə alaraq qanunun 7.5-ci maddəsindən "arxeoloji" sözünün çıxarılmasını məqsədəmüvafiq hesab edib.

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev "Bədən tərbiyəsi və idman haqqında" qanuna edilən dəyişikliyin uyğunlaşdırma xarakterli olduğunu və rəhbərlik etdiyi komitənin sənədi dəstəklədiyini bildirib.

Layihədəki digər qanunlara da uyğunlaşdırma məqsədilə müvafiq düzəlişlər nəzərdə tutulub.

Müzakirələrdən sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Diqqətə çatdırılıb ki, Məcəllənin 49-cu maddəsinin 1-ci hissəsində əmək müqaviləsinin bağlanılması ilə yanaşı, ona xitam verilməsinin qüvvəyə minməsinin də tənzimləndiyi və bu halların yalnız biri maddənin adında göstərildiyi üçün 49-cu maddənin adının dəqiqləşdirilməsi zərurəti yaranır. Qeyd olunub ki, fiziki şəxs olan işəgötürənlə bağlı bir sıra hallar baş verdikdə, onlar tərəfindən bağlanılmış və əmək müqaviləsi bildirişləri elektron informasiya sisteminə daxil edilmiş əmək müqavilələrinə xitam verilməsi zərurəti yaranır, lakin əmək müqaviləsinə xitam verilməsi səlahiyyəti işəgötürəndə olduğu üçün bu zərurətin həyata keçirilməsi mümkün olmur. Nəticədə digər işəgötürənlə əmək müqaviləsi bağlaya bilməyən işçinin əmək hüquqları məhdudlaşır, bu da narazılıqlara və məhkəmə mübahisələrinə səbəb olur. Belə halların tənzimlənməsi məqsədilə Əmək Məcəlləsinin 74-cü maddəsinə bir sıra əlavələr edilir. Həmçinin 49-cu maddəyə yeni 5-ci hissə əlavə edilməklə qeyd olunan hallarla bağlı işçinin müraciəti əsasında əmək müqaviləsi bildirişinin qüvvədən salınması səlahiyyəti əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqana verilir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (birinci oxunuş) məlumat verib. Bildirib ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə aparılan dərin sosial islahatların davamı olaraq hazırlanmış və müzakirəyə təqdim olunan "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi mövcud qanunvericilik bazasının təkmilləşdirilməsinə, pensiya təminatı sistemində sosial sığorta prinsipinin daha da möhkəmləndirilməsinə xidmət edir və hüquqi tənzimləmə, təkmilləşdirmə, habelə qanunvericilik texnikası baxımından terminoloji dəqiqləşdirmə və uyğunlaşdırma xarakteri daşıyır. Qanuna 10 maddə üzrə 43 dəyişiklik nəzərdə tutulub.

Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı "Sosial müavinətlər haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib. Bildirib ki, sənəd "Əmək pensiyaları haqqında" qanuna dəyişiklik edilməsi barədə" qanun layihəsinə uyğunlaşdırılma məqsədilə hazırlanıb. Qanuna təklif edilən dəyişiklikdə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa müavinətin digər sosial ödənişlərdən asılı olmayaraq təyin edilməsi nəzərdə tutulur. Digər düzəlişə görə, şəxsə düşən pensiyanın məbləği onun aldığı, yaxud almalı olduğu sosial müavinətin məbləğindən az olacağı təqdirdə ona müavinət təyin ediləcək.

Parlamentin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov isə "Onkoloji yardım haqqında" və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, sənəd onkoloji xəstələrin, eləcə də dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sosial müavinət və əmək pensiyası almaq hüququnu müəyyənləşdirir. Layihə "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihələrə uyğunlaşdırma xarakteri daşıyır, qeyd olunan xəstəliklərdən əziyyət çəkən şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar bildirib ki, sənəd "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsinin qəbulu ilə əlaqədar qanunvericiliyin uyğunlaşdırılması məqsədilə hazırlanıb. Təklif olunan dəyişikliyə əsasən, penitensiar xidmətdə qulluq etmiş əməkdaşların və onların ailə üzvlərinin, habelə penitensiar müəssisələrdə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası almaq hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun təsdiq etdiyi siyahısında nəzərdə tutulan işlərdə işləyən mülki işçilərin pensiya təminatı "Əmək pensiyaları haqqında" qanunla müəyyən edilir.

Deputatlar Razi Nurullayev, Fəzail Ağamalı dəyişikliklər barədə qeyd və təkliflərini səsləndiriblər. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov səsləndirilən bəzi məqamlara aydınlıq gətirib.

Təqdim olunan 4 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) də müzakirə edilib. Qeyd edilib ki, sənəddə fiziki şəxslərin kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə əldə etdikləri dividendlərin və faiz gəlirlərinin 2023-cü il fevralın 1-dən etibarən 5 il müddətinə gəlir vergisindən azad edilməsi, habelə hüquqi şəxslərin faiz gəlirlərinə görə vahid vergitutma mexanizminin tətbiq edilməsi nəzərdə tutulub.

Qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev mahiyyətcə bir-birinə yaxın olan növbəti iki məsələni təqdim edib. Komitə sədri "Ümumi təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə (birinci oxunuş) ilə əlaqədar diqqətə çatdırıb ki, sənəddə ümumi təhsil müəssisələrinin xarakterinə görə ümumi və internat tipli təhsil müəssisələrinə bölündüyü, onların özlərinin də ümumi təyinatlı, inteqrasiya təlimli və xüsusi təhsil müəssisələri kimi qruplaşdırıldığı öz əksini tapıb və müvafiq anlayışlar verilib. Bütövlükdə qanuna təklif edilən dəyişikliklərin əsas məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etmək və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.

Sonra komitə sədri "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Bildirib ki, sənəd "Ümumi təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsinə uyğunlaşdırılma məqsədi daşıyır.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Regionda mövcud olan vəziyyət müzakirə edilib



Aprelin 26-da xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonu qəbul edib.

Görüşdə həmçinin ABŞ Dövlət Departamentinin Qafqaz bölgəsi danışıqları üzrə ali müşaviri Endryu Şofer də iştirak edib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Bildirilib ki, ABŞ rəsmisi ölkəsinin bölgədəki səfirlərinin Bakıda görüşünün keçirilməsi ilə bağlı nümayiş etdirilən qonaqpərvərliyə görə Azərbaycan tərəfinə təşəkkürünü ifadə edib.

Görüşdə tərəflər ikitərəfli münasibətlərin inkişafı, habelə bölgədə mövcud olan cari vəziyyət, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar barədə fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov postmünaqişə mərhələsində iki ölkə arasında normallaşma, o cümlədən gələcək sülh müqaviləsinin işlənib-hazırlanması, sərhədin delimitasiyası, bölgədə bütün kommunikasiya xətlərinin açılması və etimad quruculuq tədbirləri istiqamətlərində atılan addımlar barədə məlumat verib. Bölgədə dayanıqlı sülh və təhlükəsizliyin təmin edilməsi üçün tərəflər arasında əldə edilmiş razılaşmaların həyata keçirilməsinin vacibliyi və Azərbaycanın öz növbəsində qeyd olunan bütün istiqamətlər üzrə irəliləməyə hazır olduğu vurğulanıb.

Görüşdə həmçinin Ukraynadakı vəziyyət, qarşılıqlı maraq doğuran digər regional məsələlər müzakirə edilib.

# İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb



İqtisadiyyat naziri Mikayıl Cabbarov İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Qlobal Əlaqələr Katibliyinin Avrasiya şöbəsinin rəhbəri Vilyam Tompsonla görüşüb.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov ölkəmizdə İƏİT-lə əməkdaşlığa önəm verildiyini, qurumun Avrasiya Rəqabətlilik Proqramı çərçivəsində faydalı əməkdaşlığını, hər il Parisdə keçirilən "Avrasiya həftəsi" tədbirində İqtisadiyyat Nazirliyi tərəfindən iştirakın təmin edildiyini vurğulayıb. Qeyd olunub ki, Azərbaycanın qeyri-neft iqtisadiyyatının inkişafı və şaxələndirilməsi məqsədilə həyata keçirilən tədbirlərin icrasında beynəlxalq təcrübənin tətbiqi baxımından İƏİT-lə tərəfdaşlıq önəmlidir. Diqqətə çatdırılıb ki, İƏİT ilə kiçik və orta müəssisələrin inkişafı, rəqəmsallaşmasının təşviqi, vergi sahəsində şəffaflıq və hesabatlılığın artırılması və digər sahələrdə əməkdaşlığın inkişafı, həmçinin birgə layihələrin icrası üçün imkanlar genişdir.

İƏİT-in Qlobal Əlaqələr Katibliyinin Avrasiya şöbəsinin rəhbəri Vilyam Tompson təmsil etdiyi təşkilatın Azərbaycanla əlaqələrin genişlənməsində marağını ifadə edib, birgə təşəbbüslərin və layihələrin icrasının Azərbaycanda kiçik və orta biznesin inkişafının təşviqinə töhfə verəcəyini vurğulayıb.

Görüşdə Şərq Tərəfdaşlığı ölkələrində Avropa İttifaqının Kiçik Biznes Aktına uyğunluğu, Azərbaycan İnvestisiya Holdinqinin portfel şirkətlərində korporativ idarəetmənin qiymətləndirilməsi layihələri, Azərbaycan-İƏİT Əməkdaşlıq Şurasının yaradılması barədə müzakirələr aparılıb.

# Müharibə haqqında danışmağa, revanşist ideyalara son qoymaq lazımdır

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Brüsselə səfəri, Avropa İttifaqı Şurasının prezidenti və Ermənistanın baş naziri ilə keçirdiyi görüşlər və sülh sazişi ilə bağlı əldə olunan razılaşmalarla bağlı çıxış hazırlamışam.

Mən sülhdən danışmağı planlaşdırmışam. Regionda yaranmış yeni reallıq sülh üçün münbit imkanlar açıb. Ancaq qəribədir, məndə koqnitiv dissonans yaranıb. Ermənistanın baş naziri Azərbaycanın sülhlə bağlı təkliflərinə müsbət razılıq verib. Ermənistan nümayəndə heyətinin üzvləri isə burada baş nazirlərinin mövqeyinin əleyhinə, regionda sülhün bərqərar olmasını istəyən ermənilərin milli maraqlarına zidd çıxış edirlər.

Azərbaycan regionda sülhə nail olmaq üçün əlindən gələn hər şeyi edib və edəcək. Azərbaycan ilə Ermənistan arasında barışıq və etimadın yaradılmasının vaxtı artıq çatıb".

AZƏRTAC xəbər verir ki, bu fikirləri AŞPA-nın yaz sessiyasının ilk günündə Büro hesabatının müzakirələrində Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov deyib.

Səməd Seyidov ondan əvvəl çıxış etmiş erməni deputata cavabında deyib: "Ermənistandan olan həmkarımız bu təşkilatı yenə əsas məqsəddən yayındırmağa, Türkiyəyə və Azərbaycana aid hər şeyi ləkələməyə cəhd edir. Ermənistan nümayəndəsi burada Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun ermənilərin hücumuna məruz qalmasından, Yerevanın mərkəzində faşist Njdeyə heykəl qoyulmasından, bu günə qədər bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünün doğma evlərinə qayıda bilməməsindən, Azərbaycanın azad etdiyi ərazilərini işğal illərində başdan-başa minalanmasından, o minalara görə azərbaycanlı məcburi köçkünlərin doğma torpaqlarına hələ də qayıda bilməməsindən, mülki insanların, eləcə də hərbçilərin o minalara görə həyatlarını itirməsindən niyə danışmır?". Nümayəndə heyətinin rəhbəri bildirib ki, biz hətta üzv dövlətlər arasında münaqişə üzrə komitənin üzvü olmağın əleyhinəyik. Azərbaycan ilə Ermənistan arasında barışıq üzrə xüsusi komitə yaratmalıyıq. Müharibə haqqında danışmağa, revanşist ideyalara son qoymaq lazımdır. Avropa Şurasının dəyərlərinə riayət etmək lazımdır.

"Əgər uzun illər əvvəl beynəlxalq ictimaiyyət bir dövlətin digər dövlətin ərazilərini işğal etməsinə, ona qarşı etnik təmizləmə aparmasına düzgün reaksiya vermiş olsa idi, Gürcüstan, Krım, indi də Ukrayna ilə bağlı bu hadisələr baş verməzdi", - deyə S. Seyidov bildirib.

Azərbaycanlı parlamentari regionda sülhün bərqərar olmasının vaxtının çatdığını bildirərək Ermənistandan olan həmkarlarını sülhniyyətli olmağa, erməniləri azərbaycanlılar kimi sülh haqqında düşünməyə çağırıb.

# Sülh, yoxsa "Dəmir yumruq"?

## İlham Əliyev Ermənistana seçim üçün son şans verdi

Günün prioritet siyasi mövzusu Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh sazişinə hazırlıq prosesidir.

Brüsseldə keçirilən üçtərəfli görüş iki ölkənin münasibətlərində müsbət irəliləyişin başlanğıc mərhələsi oldu. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin görüşdən sonrakı ümidverici bəyanatı da göstərdi ki, beynəlxalq təşkilatlar da regionda sülhün daha tez bir zamanda bərqərar olunmasının tərəfdarıdırlar.

Ermənistanın Baş naziri Nikol Paşinyan isə açıq şəkildə bəyan etdi ki, Azərbaycan Prezidentinin sülh sazişinin imzalanması üçün irəli sürdüyü 5 prinsipdən ibarət təklifi ilə də razıdırlar. Yəni, rəsmi İrəvan danışıqların Azərbaycanın maraqlarına uyğun formatda aparılmasının da lehinədir. Bu səbəbdən də Brüssel görüşündə sülh sazişinin imzalanması prosesinə hazırlıq üçün iki ölkənin xarici işlər nazirliklərinə bu istiqamətdə işçi qruplarının yaradılması həvalə edildi.

Aprelin 25-də isə İlham Əliyev Rusiyanın Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edərkən bildirdi ki, sülh müqaviləsinin hazırlanması istiqamətində sərhədlərin delimitasiyası və demarkasiyası üzrə Azərbaycan milli komissiyasının tərkibi artıq müəyyənləşib və Azərbaycan danışıqlara tam hazırdır.

### Sülhə gedən yolda yenə erməni məkri

Lakin təəssüflə qeyd etməliyik ki, məhz belə bir vaxtda, yəni, sülh sazişinin imzalanması istiqamətindəki proseslərin müsbət məcrada davam etdiyi zamanda Ermənistan tərəfindən sərhəddə yenə təxribat törədilir.

Aprelin 23-də dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin təxribat-diversiya qrupu dövlət sərhədini keçməyə cəhd göstərir. Dövlət Sərhəd Xidməti tərəfindən təxribat-diversiya qrupunun Azərbaycan ərazisinə keçməsinin qarşısı alınır və qrupun üzvü, hərbi qulluqçu Eduard Martirosyan saxlanılır. Bu isə hər zaman baş verən təxribatları təkzib edən Ermənistan qarşısında yetərli sübut olur ki, məğlub ölkə delimitasiya komissiyalarının yaradılması və digər müvafiq işlərin aparılmasına qarşı çıxır. Necə ola bilər ki, bir ölkənin rəhbərliyi sülh sazişinin imzalanmasına razılıq verir, digər tərəfdən bunu əngəlləyəcək çirkin oyunlar oynanılır.

Bütün bunlar təbii ki, yalnız Ermənistanı çətin duruma salır. Çünki Azərbaycan qalib ölkə kimi işğaldan azad edilən torpaqlarımızda həm yenidənqurma işlərini reallaşdırır, həm də yeni kommunikasiyaların yaradılması istiqamətində mühüm layihələr reallaşdırır. Xüsusən 10 noyabr Bəyanatının müddəalarına uyğun olaraq öhdəliyini yerinə yetirir. Ermənistan isə hələ də bu sənəddə göstərilən öhdəliyi ilə bağlı ciddi addım atmayıb.

Dünən Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edən İlham Əliyev bu məsələyə bir daha toxunaraq vurğuladı ki, Azərbaycan nəqliyyat-kommunikasiya xətlərinin açılması prosesi istiqamətində üzərinə düşən öhdəliyi yerinə yetirməkdədir. Belə ki, dəmir yolunun Azərbaycan ərazisində artıq 60 kilometrlik hissəsi tikilib və gələn il işlər tamamlanacaq. Avtomobil yolu ilə də bağlı Azərbaycan tərəfindən işlər tam qrafikə uyğun şəkildə aparılır. Əfsuslar olsun ki, Ermənistan tərəfindən bunlarla bağlı heç bir işə başlanılmayıb. Rəsmi İrəvan öz ərazisindən keçməsi nəzərdə tutulan avtomobil yolu marşrutunun coğrafi koordinatlarını belə qeyd etməyib. Azərbaycanın bu məsələni dəfələrlə qaldırmasına baxmayaraq, Ermənistan tərəfindən bununla bağlı heç bir cavab gəlməyib.

### Müqavilənin mətni tezliklə hazırlana bilər

Hər şey açıq şəkildə ortadadır. İlham Əliyev konkret mövqe nümayiş etdirərək həm Qarabağ və Şərqi Zəngəzuru yenidən qurur, həm də sülh danışıqlarına hazır olduğunu əməlləri ilə sübuta yetirir.

Aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Zəfər Qurultayında bir daha mövqeyini dünyaya bəyan edən qalib Komandan dedi ki, hazırda iki ölkənin xarici işlər nazirləri işçi qrupları formalaşdırır və yaxın gələcəkdə konkret danışıqlara başlamaq lazımdır.

Vaxtın uzadılmasına tərəfdar olmayan Prezident xatırlatma edərək məhz beş prinsip əsasında sülh müqaviləsinin imzalanacağını diqqətə çatdırdı: "Müqavilənin mətni tezliklə hazırlana bilər, imzalana bilər və beləliklə, Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə bir daha biz xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk".

Azərbaycan Prezidenti hər zaman xoş niyyətini ortaya qoyduğu halda Ermənistan təxribata əl ataraq köhnə ənənəsindən əl çəkmir. Amma gec-tez məğlub ölkə sülh danışıqları masasına oturmaq məcburiyyətində qalacaq. Çünki Cənubi Qafqazda sülhün bərqərar olmasını tək Azərbaycan deyil, beynəlxalq təşkilatlar da istəyir. Avropa İttifaqı bu istiqamətdə vasitəçiliyi üzərinə götürüb. Yəni Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması məsələsi gündəlikdədir.

Göründüyü kimi, yenə də gündəliyi Azərbaycan Prerzidenti müəyyənləşdirir. Bütün ağrılı məqamlara, işğala, törədilmiş erməni vəhşiliklərinə baxmayaraq, İlham Əliyev bölgənin gələcəyi naminə sülh gündəliyi təqdim edir. Ermənistanın düşdüyü sosial-iqtisadi bataqlıqdan qurtulması üçün yol göstərir.

Ancaq məğlub ölkənin rəhbərliyi Qarabağın kiçik hissəsində olan revanşistləri zərərsizləşdirə bilmir. Qalib Komandan isə bəyan edir ki, lazım olsa, Azərbaycan həmin qüvvələri bir neçə saat ərzində antiterror əməliyyatı ilə tamamilə zərərsizləşdirə bilər.

Elə Şuşadakı Zəfər qurultayında da İlham Əliyev Ermənistana sonuncu dəfə şans verərək ciddi mesaj ünvanladı: "Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq".

İlham Əliyevin bu mesajı 2 yol göstərir. Ya 5 prinsipi qəbul edib sülh sazişi imzalanmalı, ya da "dəmir yumruq" yenidən işə düşməlidir. Təbii ki, 44 günə diz çökən Ermənistan bir daha ağır zərbə almaq istəməz. Bu, Ermənistanın hərtərəfli çöküşü, məhvi ilə nəticələnməsi deməkdir. Görünən odur ki, Ermənistan rəhbərliyi ölkənin daha acınacaqlı duruma düşməməsi üçün Azərbaycanın bütün tələblərini yerinə yetirməklə sülh sazişini imzalamağa məcburdur. Yəni, Ermənistanın qurtuluşu sülh sazişindən keçir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Həmrəyliyin Şuşa zirvəsi

## Həmvətənlərimiz sarsılmaz və əbədi birlik mesajlarını bu dəfə dünyaya Qarabağdan bəyan etdilər

"...Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz".

Müzəffər Komandan İlham Əliyevin Qarabağın qürur qalası Şuşada, Dünya Azərbaycanlılarının V Qurultayında bəyan etdiyi kimi, harada yaşamasından asılı olmayaraq, bu gün Azərbaycan xalqının hər bir üzvü özünü qürurlu, xoşbəxt sanır.

### Haqq və ədalətin qələbəsi

Xalqımız illər idi ki, addım-addım bu fəxarətli günlərə qovuşmağa yol almışdı...

Bir qərinəyə yaxın idi ki, arzuladığımız, həsrətində olduğumuz Şuşanın, Ağdamın, Laçının, Kəlbəcərin, Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Qarabağımızın qurtuluş müjdəsini alacağımız günləri gözləmişdik...

Və nəhayət gün o böyük gün oldu...

Haqq, ədalət uğrunda apardığımız Vətən müharibəsi sayəsində arzularımızın, ümidlərimizin gerçəkləşdiyi müqəddəs məqama yetdik.

2020-ci ilin 27 sentyabrı ruhumuza diriliş, milli kimliyimizə oyanış günü kimi həkk olundu. İllərdir zəfərə, qalibiyyətə susamış xalqım torpaq nisgilinə, Vətən həsrətinə son qoymaq üçün dünyanın dörd bir yanında ayağa qalxdı. Azərbaycan xalqının ən qürurlu, ən parlaq zəfərinə imza atdı...

2020-ci ilin 8 noyabrını, mənəvi qibləmiz Şuşanın azadlığı - Qarabağ Zəfəri kimi könül səltənətimizin şah zirvəsində qərar tutan möcüzəvi tarixə çevirərək salnamələrə həkk etdik.

### Amalımız bir oldu

44 günlük Vətən müharibəsində bir amal ətrafında tarixin heç bir dönəmində olmadığımız kimi həmrəy olduq, haqq savaşımız uğrunda hər birimiz irəli atıldıq.

Bu zəfər çələngini Azərbaycan xalqının hər bir övladı öz əlləriylə zərrə-zərrə hördü. Tək ölkəmizin daxilində deyil, onun hüdudlarından kənarda yaşayan soydaşlarımız da haqq savaşı uğrunda birləşərək beynəlxalq aləmə səsimizi çatdırmaq, həqiqətlərimizi anlatmaq üçün informasiya cəbhəsində mübarizəyə başladılar, sözün əsl mənasında, erməni yalanlarının qarşısında keçilməz səddə çevrildilər, Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır!" haqq nidasına dəstək verdilər.

Milli həmrəyliyimizin təntənəsi olan Vətən müharibəsində diaspor təşkilatlarımızın dünyanın 30-dan çox ölkəsində keçirdikləri 200-dək aksiyada 25 mindən çox soydaşımız və dost xalqların nümayəndələri iştirak etdilər. Eyni zamanda müharibə günlərində 300-ə yaxın diaspor təşkilatı müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərmişdilər.

Elə bu birlik və bərabərliyimizin nəticəsidir ki, bir amal ətrafında "dəmir yumruğ"a çevrilərək cəmi 44 günlük qısa bir zamanda düşmənin belini sındırdılar.

### Həmrəyliyin tarixi

Dünyada yaşayan həmvətənlərimizlə əlaqələrin yaradılması Azərbaycan öz dövlət müstəqilliyini elan edəndən sonra reallaşdırılıb. Azərbaycançılıq ideyasının uğurlu inkişafı və həmrəylik zirvəsinə ucalması isə Ümummilli Lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır.

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik günü kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul edib.

Həmin vaxtdan bütün dünyada azərbaycanlılar bu günü böyük sevinc və qürurla bayram kimi qeyd edirlər. Bu günün mühüm məram və mahiyyəti barədə Ümummilli Lider xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərinin birində deyib: "Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır..."

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Milli həmrəyliyimizin nümayişi olan bu möhtəşəm qurultayda Ümummilli Lider nitqində bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır deyə xüsusi vurğulamışdı: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik".

Ümummilli Lider Heydər Əliyevin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı həmrəyliyimizin əsas kod cümləsi kimi dillər əzbərinə çevrilib.

Dünya Azərbaycanlılarının ikinci qurultayı 2006-cı il martın 16-da, üçüncü qurultayı 2011-ci il iyulun 5-6-da, dördüncü qurultayı 2016-cı il iyunun 3-4-də keçirilib.

### Zəfər titullu qurultay

Dünya Azərbaycanlılarının beşinci qurultayı isə tariximizə Zəfər qurultayı kimi fəxarətli titulla düşdü. Parlaq zəfərimizdən sonra, ilk dəfə 2022-ci ilin aprelində dünya azərbaycanlıları azad Qarabağda, azad Şuşada toplaşdılar, qurultay keçirdilər. Öz sarsılmaz və əbədi həmrəyliklərini bir daha qürur ünvanımız Şuşadan bütün dünyaya, dosta-düşmənə nümayiş etdirdilər.

Bu möhtəşəm tədbirdəki çıxışı zamanı Prezident İlham Əliyevin vurğuladığı kimi, bundan sonra Azərbaycan xalqının müzəffər xalq kimi əbədi yaşayacağı, dövlətimizin qalib dövlət kimi sonsuzadək var olacağının mesajını verdilər: "Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər".

Azərbaycan Prezidenti nitqində o məqama da xüsusi diqqət çəkdi ki, bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Çünki xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir və onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir: "Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, bizim dövlətimizi daha da gücləndirir. Biz Azərbaycan dövləti olaraq öz fəaliyyətimizdə həmişə xaricdə yaşayan azərbaycanlıların yaşayışı ilə maraqlanırıq, təmaslar qururuq. Dövlətlərarası münasibətlər müstəvisində bu, önəmli bir amildir. Mən də öz həmkarlarımla, harada ki, azərbaycanlılar yaşayır, o ölkələrin rəhbərləri ilə daim bu məsələyə diqqət yetirirəm".

Vətən müharibəsində yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətə Azərbaycan həqiqətlərinin çatdırılmasında uğurlu fəaliyyət göstərən diasporumuzun nümayəndələri də Qarabağın azad olunmasından sonra ilk böyük görüşlərini qürur ünvanımız Şuşada keçirmələrinin, azad torpaqlarımıza qürurla qədəm basmağın xoşbəxtliyini yaşadılar. Dünya durduqca var olması üçün, Yer üzünün hər yerində tarixi vətənləri Azərbaycanın daim təbliğatçısına, mənafeləri uğrunda müdafiəçisinə çevrilməyə, elə Şuşada, Qarabağın qürur qalasında müqəddəs and içdilər...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Aprelin 26-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev əvvəlcədən növbəlilik əsasında qəbula yazılmış vətəndaşların müraciətlərini dinləyib, suallarını cavablandırıb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Prezident İlham Əliyevin rəhbərliyi ilə qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması üçün genişmiqyaslı tədbirlər həyata keçirildiyi qeyd edilib. Həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da müharibədən əziyyət çəkən insanlara, o cümlədən məcburi köçkünlərə xüsusi diqqət və qayğı göstərdiyi vurğulanıb.

Diqqətə çatdırılıb ki, bu günədək məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı ərazilərdə onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülüb. Vətən müharibəsində qazanılan Qələbədən sonra yeni reallıqlar yaranıb. Bundan sonra məcburi köçkünlər üçün mənzillər işğaldan azad edilmiş ərazilərdə inşa olunacaq, onların mərhələli şəkildə doğma yurda qayıdışı həyata keçiriləcək. Hazırda Zəngilan, Füzuli, Ağdam rayonlarında, həmçinin Şuşa şəhərində yeni yaşayış sahələrinin inşası davam etdirilir, müvafiq infrastruktur yaradılır.

Qəbulda iştirak edən vətəndaşların müraciətləri, əsasən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət, məşğulluq, işğaldan azad olunmuş ərazilərə qayıdış və digər məsələlərlə əlaqədar olub.

Komitə sədrinin qəbulunda əksəriyyəti məcburi köçkün olan vətəndaşların müraciətləri dinlənilib və müvafiq qaydada qeydə alınıb. Onlara bildirilib ki, qaldırılan məsələlər araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə həll ediləcək.

Elm xadimləri



# Zərifə Əliyeva fenomeni

## Zəkanın nuru və xeyirxahlığın genetik yaddaşı

**Azərbaycan xalqının milli özünüdərkinin ən önəmli amillərindən biri xatirə anlayışına, unudulmazlıq məfhumuna sədaqətidir. Xalqımız şəxsiyyəti, əməlləri, yaratdıqları, davamçıları ilə tarix yazmış görkəmli simaları, nəcib insani keyfiyyətlərə, yüksək ali dəyərlərə malik şəxsiyyətləri əbədi yaddaşına ona görə bu qədər israrla həkk edir ki, onlarla qürur duysun, öyünsün, bu insanların varlığı ilə millət olduğunu dərk etsin və özünə güvənsin.**

Yüksək elmi nailiyyətləri, milli mənəvi-əxlaqi dəyərlərə, eyni zamanda müasirlik və inkişafa bağlılığı, xeyirxah və nəcib əməlləri ilə xalqımızın yaddaşında həmişəyaşarlıq qazanmış görkəmli elm və səhiyyə xadimi, AMEA-nın həqiqi üzvü, tibb elmləri doktoru, professor Zərifə Əziz qızı Əliyevanın adı Azərbaycanın XX əsr tarixinin ən görkəmli və yaradıcı simaları sırasına qızıl hərflərlə yazılmışdır.

Tanınmış ziyalı nəslin layiqli davamçısı, sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ana, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq-alim və xeyirxah insan kimi şərəfli bir ömür yaşamış Zərifə xanımın həyatının hər bir anı mənəvi kamillik və müdriklik məktəbidir. Geniş dünyagörüşü, fitri istedadı və intellekti ilə seçilmiş bu böyük insan ömrünü zərrə-zərrə xalqının və vətəninin gələcəyi üçün şam kimi əritmiş, insanlara sevgisi, geniş dünyagörüşü və dərin bilikləri sayəsində böyük uğurlara imza atmışdır.

Həyatı hər bir alim və tibb işçisi üçün başdan-başa örnək olan akademik Zərifə Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvanın Şahtaxtı kəndində Azərbaycanın səhiyyə və dövlətçilik tarixində özünəməxsus yeri ilə seçilən ictimai və dövlət xadimi, Əməkdar həkim, professor Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. Ulu Tanrının ən yüksək mənəvi xüsusiyyətlər bəxş etdiyi Zərifə xanım müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - Ulu Öndər Heydər Əliyevin məslək, əqidə və əməl silahdaşı, vəfalı ömür-gün yoldaşı olmuş, şəfqətli ANA kimi müasir Azərbaycanın lideri, millətin müzəfferlik və qalibiyyət tarixinə yeni-yeni səhifələr yazan görkəmli dövlət xadimi, Prezident İlham Əliyevin şəxsiyyət kimi formalaşmasında həlledici rol oynamışdır.

Zərifə xanım oftalmologiya elminin korifeyi, ziyalı və işıqlı bir şəxsiyyət olmaqla görmə problemli insanlara və ümumən ətrafındakı hər kəsə sözün həm həqiqi, həm də məcazi mənasında nur paylayan, gözlərə işıq, qəlblərə həyat eşqi bəxş edən, ətrafına gözəlliklər saçan mələk misallı bir insan olmuşdur. Görkəmli alim və təbibin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, əldə etdiyi mühüm nailiyyətlər, bunların əsasında yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Məlumdur ki, Minilliyin İnkişaf Məqsədləri özündə 8 əsas vəzifəni birləşdirir ki, onlardan biri də bu gün bütün tərəqqipərvər bəşəriyyəti narahat edən "gender bərabərliyinin təşviqi və qadınların rolunun gücləndirilməsi"dir. Bu vəzifənin icrası istiqamətində mühüm addım kimi BMT Baş Assambleyasının 2015-ci il dekabrın 22-də qəbul etdiyi qətnaməyə əsasən, fevralın 11-i "Qadınlar və Qızlar Elmdə" Beynəlxalq Günü elan edilmişdir və o vaxtdan hər il bütün dünyada bu tarix geniş şəkildə qeyd olunur. Dünya birliyinin qadınların elmə cəlb olunmasının vacibliyinə bu qədər diqqət ayırmasından onilliklər əvvəl xalqımız beynəlxalq miqyasda tanınmış, vətənimizə və dünya elminə böyük töhfələr vermiş onlarca qadın alim yetişdirmişdir. Zərifə Əliyeva, Aida İmanquliyeva, Ədilə Namazova, İzzət Orucova, Zəhra Quliyeva, Rəfiqə Əliyeva və digər elm korifeylərinin adlarını fəxrlə çəkmək olar. Alim qadınlar ölkənin ictimai-siyasi həyatında da hər zaman fəal iştirak etmiş, təhsilin, mədəniyyətin, müxtəlif elm sahələrinin inkişafı üçün çox iş görmüşlər.

"Qadınlar və Qızlar Elmdə" günü ilə bağlı 2021-ci və 2022-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən təşkil edilmiş konfranslarda bir sıra aktual məsələlərlə yanaşı, Azərbaycan qadınlarının elmdəki rolu da geniş müzakirə mövzusu olmuşdur. Hər iki mötəbər tədbirdə xüsusi qeyd edilmişdir ki, Azərbaycanda elmi işçilərin 56, fəlsəfə doktorlarının 51, elmlər doktorlarının 46 faizi, ali təhsil ocaqlarında və AMEA-da təhsil almış magistrantların 54 faizindən çoxu, AMEA əməkdaşlarının 60 faizi qadınlardır. Bizim ölkədə hər hansı cəmiyyətin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsi olan elm və texnologiyalar üzrə təhsil alanların 40 faizi qızlardır, halbuki dünyada bu rəqəm 35 faizdən yuxarı deyildir, əksər ölkələrdə isə heç 5 faizi də keçmir. Bu nəticələrə nail olmaq üçün Azərbaycan uzun bir yol keçmişdir və bu yolun uğurlarında akademik Zərifə Əliyevanın da böyük töhfələri vardır.

Qadınların ali təhsilə və elmə çox da kütləvi müraciət etmədikləri bir dövrdə - İkinci Dünya müharibəsinin ən gərgin vaxtlarında orta məktəbi bitirən gənc Zərifə Əliyeva həyatını insanların sağlamlığına həsr etməyi qərara almış və Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə qəbul olunmuşdur. 1947-ci ildə institutu bitirdikdən sonra Moskvadakı Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisas kursunu keçmişdir.

Qarşısına qoyduğu məqsədlərə sadiqliyi və elmi tədqiqatlara böyük marağı Zərifə xanımı Azərbaycan SSR Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Oftalmologiya İnstitutuna gətirdi və o, 1949-cu ildə bu institutda elmi işçi kimi fəaliyyətə başladı. 1950-1953-cü illərdə aspiranturada təhsil aldıqdan sonra Zərifə Əliyeva 1960-1967-ci illərdə həmin institutda böyük elmi işçi vəzifəsində çalışdı.

1950-ci illərdə Azərbaycanda traxoma kimi göz xəstəliyi geniş yayılmışdı. O zaman hələ bu infeksiyanın effektiv müalicə üsulları işlənib hazırlanmamışdı və qeyd olunan xəstəliyə qarşı mübarizə təkcə oftalmologiya deyil, bütövlükdə respublikanın səhiyyə sistemi üçün mühüm əhəmiyyət kəsb edirdi. Zərifə xanım traxoma ilə mübarizə üzrə müalicə-profilaktika tədbirlərinin təşkilində və həyata keçirilməsində fəal iştirak edirdi. O, təcrübi təbiblik fəaliyyəti ilə yanaşı, Azərbaycanın traxoma xəstəliyinin xüsusilə yüksək olduğu rayonlarına səfərlər edir, oftalmoloqlara mühazirələr oxuyur, əhali ilə söhbətlər aparırdı.

Zərifə xanımın ilk tədqiqatının mövzusunu yaşadığı dövr özü diktə etmişdi. Onun elmi-tədqiqat işi traxomanın müalicəsi ilə bağlı bir sıra məsələlərə, daha dəqiq desək, traxomanın və onun fəsadlarının müalicəsində o zamanlar yeni antibiotikin - sintomisinin effektiv istifadə imkanlarının öyrənilməsinə həsr olunmuşdu. Bu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın sintomisinlə digər terapiya üsulları ilə birgə müalicəsi" mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etmişdi. 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası tərəfindən gənc alimə "Oftalmologiya" ixtisası üzrə baş elmi işçi elmi adı verilmişdi.

Zərifə Əliyeva 1967-ci ildə Azərbaycan SSR Səhiyyə Nazirliyinin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının dosenti vəzifəsinə dəvət olunmuşdu. Ömrünün sonuna kimi burada çalışan Zərifə xanım 1983-cü ildə kafedranın müdiri vəzifəsinə seçilmişdi. Həmin illərdə alim-təbib tibbi fəaliyyətlə məşğul olmaqla yanaşı, çoxsaylı mürəkkəb əməliyyatları icra edir, xəstələrə məsləhətlər verirdi. Onun elmi-pedaqoji fəaliyyəti bununla məhdudlaşmır, bütün oftalmoloji müəssisə və şöbələri, kadrların təkmilləşdirilməsi prosesini də əhatə edirdi.

Qeyd etmək lazımdır ki, Zərifə xanım Əliyeva yüksəkixtisaslı kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Görkəmli alim tələbələrinə zəngin elmi təcrübəsini öyrətmiş, onlara diqqət və qayğıkeşliklə yanaşmışdır. Ümumiyyətlə, Zərifə Əliyeva hər zaman ətrafına gənc bacarıqlı və savadlı həkimləri toplamaqla elmi-tədqiqat işlərini uğurla təşkil edirdi. 1977-ci ildə onun təşəbbüsü ilə ilk dəfə olaraq Bakıda keçirilən Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumunun təşkilati işləri böyük təcrübə və idarəçilik qabiliyyəti tələb edirdi və Zərifə xanım bunun öhdəsindən uğurla gələ bilmişdi. Bu plenum həm Azərbaycanda, həm də keçmiş ittifaqın tanınmış akademik müəssisələrində oftalmoloji xidmətin inkişafında, elmi və elmi-pedaqoji kadrların hazırlanmasında böyük rol oynamışdı.

Milli oftalmologiyanın əsasını qoymuş, 1968-ci ildən görmə orqanının peşəkar patalogiyaları ilə məşğul olmuş və bu istiqamətdə bir çox yeni elmi ideyanın müəllifi kimi bütün dünyada tanınmış Zərifə Əliyeva sonrakı illərdə bu sahədə apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələrinə həsr edilmiş "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını 1976-cı ildə Moskvada, nüfuzlu elmi mərkəz kimi tanınan M.Helmholts adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmiş, bir il sonra SSRİ Nazirlər Kabineti yanında Ali Attestasiya Komissiyası tərəfindən professor elmi adını almışdır. 1983-cü ildə isə o, elmi və elmi-təşkilati fəaliyyətində və kadr hazırlığında əldə etdiyi mühüm nailiyyətlərə, onların sosial-iqtisadi əhəmiyyətinə görə Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilmişdir.

Görkəmli alim oftalmologiyanın müxtəlif istiqamətlərinə aid 150-dən çox elmi məqalənin, 14 monoqrafiyanın, 12 səmərələşdirici təklifin müəllifi kimi dünya tibb elmində silinməz izlər buraxmışdır. Bir alim kimi çox böyük zirvələri fəth etməyi bacarmış Zərifə Əliyevanın əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını qoruyub saxlamaqla oftalmoloqların stolüstü kitablarına çevrilmişdir.

Akademik Zərifə Əliyeva çoxillik gərgin elmi axtarışlar və eksperimental tədqiqatlar nəticəsində istehsalatda aşağı intensivlikli zərərli maddələrin görmə orqanına təsirinin mühüm qanunauyğunluqlarını aşkar etmişdir. Onun çoxşaxəli elmi fəaliyyətinin əsas istiqamətlərini traxoma xəstəliyinin klinikası, görmə orqanının fiziologiyası və peşə xəstəliklərinin təsiri nəticəsində baş verən göz patologiyalarının profilaktikası, diaqnostikası və müalicəsi, kimya sənayesi müəssisələrinin işçilərində görmə orqanının vəziyyəti, herpetik göz xəstəlikləri, ağır virus konyunktivitləri, gözün hidrodinamik sisteminin fizioloji-anatomik xarakteristikası, göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi, şəkərli diabet zamanı göz xəstəlikləri, terapevtik oftalmologiya, iridodiaqnostikanın əsasları, qlaukoma problemləri və s. təşkil etmişdir. Onun Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyması və buna nail olması hesab edilə bilər.

Zərifə Əliyeva həmçinin göz zədələrinin qarşısının alınması və onlara nəzarət imkanlarını öyrənmişdir. O, gözün zədələnməsinin nəticələrinin cərrahi müalicəsinə mövcud metodoloji yanaşmaları təhlil etmiş və onların təkmilləşdirilməsi üçün bir sıra faydalı tövsiyələr vermişdir. Bundan əlavə, Zərifə xanım gözün bəzi bədxassəli şişlərinin diaqnostikası və müalicəsinə də diqqət göstərmiş, eyni zamanda göz melanomasının klinik gedişatının xüsusiyyətlərini öyrənmişdir. Onun daktriologiyaya dair monoqrafik əsərləri - "Göz yaşı drenajının fiziologiyası", "Göz yaşı axmasının cərrahi müalicəsinin müasir üsulları", "Göz yaşı yollarının ehtiyatlı cərrahiyyəsi" təkcə oftalmoloqların deyil, həm də fizioloqların stolüstü kitabına çevrilmişdir. Zərifə Əliyevanın həmmüəllifi olduğu "Terapevtik oftalmologiya", "İridologiyanın əsasları", "Oftalmologiyanın aktual məsələləri" nadir monoqrafik əsərləri həm praktiki oftalmoloqlar, həm də müəllim və tələbələr üçün bu gün də böyük maraq doğurur.

Zərifə Əliyeva tibbi etika məsələləri ilə də maraqlanır, həkimlərin cəmiyyətdəki roluna, müvafiq peşə fəaliyyətində əxlaqi prinsiplərin tərbiyəsinə xeyli vaxt ayırırdı. Onun həkimin etik davranışı haqqında çox dəyərli fikirləri, bu mövzuda çoxsaylı məqalə və çıxışları, o cümlədən "Uca çağırış" adlı kitabı həkim şəxsiyyətinin formalaşması işinə mühüm töhfələr vermişdir.

O, yüksəkixtisaslı həkim və alim olmaqla yanaşı, çox mehriban, xeyirxah bir insan idi. Zərifə xanımın bütün fəaliyyəti, atdığı hər bir addım insan amilinə əsaslanırdı. Bu məqam görkəmli alimin bütün tibbi fəaliyyətinin əsasında dururdu. O, sadə insanlara həmişə xüsusi diqqət və qayğı ilə yanaşır, onların problemlərini dinləyir və həll etməyə çalışırdı.

Tibb elmində "peşə oftalmologiyası"nın əsasını qoymuş Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya elminə görmə orqanının peşə xəstəliklərinin öyrənilməsi və profilaktikası üçün yeni üsulların işlənməsi kimi elmi yenilik gətirmişdir. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə dünya miqyasında böyük şöhrət qazandırmışdır.

Hələ 1977-ci ildə Bakıda keçirilmiş Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu Zərifə xanımın Azərbaycanda görmə orqanının peşə patologiyasının tədqiqi üzrə ilk ixtisaslaşmış elmi-tədqiqat laboratoriyasının yaradılması təşəbbüsünü dəstəkləmişdi. Bununla da Bakı Məişət Kondisionerləri Zavodunda unikal elmi laboratoriya yaradılmışdı. Burada klinik və funksional diaqnostika ilə yanaşı, cərrahiyyə bölməsi də fəaliyyət göstərirdi.

Zərifə Əliyeva tərəfindən aparılmış və görmə orqanına ətraf mühit amillərinin göstərdiyi təsirin mexanizm və qanunauyğunluqlarına həsr olunmuş elmi araşdırmalar biotibb elminə yaxın sahələrin, ilk növbədə multidissiplinar formatda fiziologiya elminin cəlb edilməsinə, gözün fiziologiyası haqqında təsəvvürlərin genişləndirilməsinə ehtiyac yaradırdı. Məhz bu səbəblərdən Zərifə Əliyevanın keçdiyi uğurlu elm yolunun əhəmiyyətli bir hissəsi AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu ilə bağlı olmuşdur. Zərifə xanımın təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1979-cı ildə həmin institutda SSRİ-də ilk dəfə olaraq Görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyası yaradılmışdır.

Laboratoriyanın ilk tədqiqat işlərinin "Müxtəlif kimyəvi faktorların təsiri şəraitində işləyən insanların görmə orqanının kliniki-fizioloji və morfohistokimyəvi xüsusiyyətləri" mövzusu ətrafında qurulması da təsadüfi olmamışdır. 1970-ci illərdə Azərbaycan keçmiş SSRİ məkanında kimya sənayesinin əsas mərkəzlərindən biri sayılırdı və bu səbəbdən laboratoriyada aparılan tədqiqatların məqsədi istehsalatda iştifadə edilən müxtəlif kimyəvi maddələrin görmə orqanına uzunmüddətli xroniki təsirinin kompleks analizi və bu təsirin nəticəsi kimi baş verə biləcək dəyişikliklərin erkən diaqnostikası olmuşdur. O dövr səhiyyənin, tibb elminin qarşısında duran fundamental problemlərdən biri peşə ilə bağlı az zərərli amillərin, aşağı dozaların xroniki təsiri altında orqanizmdə baş verən qeyri-spesifik patologiyaların öyrənilməsi idi. Başqa sözlə, ətraf mühitin əlverişsiz təsiri zamanı orqanizmin adaptiv-kompensator mexanizmlərinin öyrənilməsi ön plana çıxmışdı. Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini də öyrənmiş və bu xəstəliklərin profilaktikası tədbirlərini işləyib hazırlamışdır. Zərifə Əliyevanın dünyada analoqu olmayan elmi tədqiqatları uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisəsini, neftayırma zavodlarını əhatə etmişdir. Ümumilikdə müayinələrə 4000-dən çox fəhlə və mütəxəssis cəlb olunmuşdur. Zərifə xanımın təxminən 40-50 il bundan əvvəl apardığı həmin tədqiqatlarda müasir elm qarşısında qoyulan əsas tələblərdən birinin, yəni elmlə istehsalatın sıx əlaqəsinin təmin edilməsinin bariz nümunəsini görmək mümkündür.

Yuxarıda qeyd edilən tədqiqatlardan aldığı uğurlu nəticələrə görə, akademik Zərifə Əliyeva qadın mütəxəssislər arasında ilk dəfə olaraq 1981-ci ildə oftalmologiya sahəsində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür.

Görkəmli alim gözün çoxsaylı oftalmoloji müayinələri ilə yanaşı, ilk dəfə olaraq elektrofizioloji metodlardan da geniş istifadə etmişdir. Toksik maddələrlə təmasda olan işçilərin gözlərinin elektroretinoqrafik, elektrookuloqrafik, reooftalmoqrafik müayinəsi torlu qişanın müxtəlif hüceyrə elementlərinin funksional vəziyyətində baş verən dəyişiklikləri üzə çıxarmağa imkan yaradırdı. Paralel olaraq aparılan eksperimental tədqiqatlarda toksik maddələrin və bəzi fiziki amillərin gözün torlu qişasında funksional vəziyyətə, sərbəst radikal proseslərə, neyromediatorların səviyyəsinə təsiri öyrənilirdi. Həmin tədqiqatların nəticələri bu gün də mütəxəssislər arasında böyük maraq doğurur.

Zərifə Əliyevanın rəhbərliyi ilə Salyan rayonunun kənd təsərrüfatı müəssisələrində çalışan və əmək fəaliyyəti zamanı pestisidlərlə təmasda olan 500-ə yaxın insanı əhatə edən unikal tədqiqat nəticəsində ilk dəfə olaraq kənd təsərrüfatı işçilərində görmə orqanının vəziyyəti haqqında müvafiq biliklərin əldə edilməsinə imkan yaranmışdı. O cümlədən göstərilmişdi ki, gözün ön şöbəsində iltihab xəstəliklərinin tezliyi pestisidlərin təsiri altında əhəmiyyətli dərəcədə yüksəlir.

Zərifə Əliyevanın elmi maraq dairəsində görmə orqanının, görmə analizatorunun yaşla bağlı dəyişikliklərinin tədqiqi də xüsusi yer tuturdu. Görkəmli rus oftalmoloq-alimi, akademik A.Brovkina Zərifə xanımın "Gözün və görmə-sinir traktının yaş dəyişmələri" kitabı haqqında demişdi: "Bu elmi əsər mahiyyət etibarilə oftalmologiyada yeni bir istiqamətin - oftalmoloji herontologiyanın başlanğıcını qoyur". Kitab AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda bu gün həyata keçirilən herontoloji tədqiqatlar fonunda daha da aktual və dəyərlidir.

Onu da qeyd etmək lazımdır ki, Zərifə xanımın laboratoriyasının əməkdaşları 80-ci illərin sonunda "Uzunömürlülük fenomeni" beynəlxalq əməkdaşlıq proqramı çərçivəsində həm Azərbaycanın yüksək uzunömürlülük indeksi ilə fərqlənən Qazax və İsmayıllı rayonlarında, həm də keçmiş SSRİ-nın bəzi regionlarında, o cümlədən Krımda həyata keçirilmiş beynəlxalq herontoloji elmi ekspedisiyalarda fəal iştirak etmiş, yaşı 90-ı ötmüş 900-ə yaxın insanda görmə orqanının yaşla bağlı dəyişikliklərini öyrənərək bu gün də mütəxəssislər üçün böyük əhəmiyyət kəsb edən bir sıra elmi əsərlər nəşr etdirmişlər.

Akademik Zərifə Əliyeva SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" cəmiyyətinin idarə heyətinin və elmi tədqiqatlar komitəsinin rəyasət heyətinin, SSRİ Oftalmoloqlar Cəmiyyətinin üzvü, "Oftalmologiya bülleteni" jurnalının redaksiya heyətinin üzvü kimi geniş elmi-ictimai fəaliyyətlə də məşğul olmuşdur.

Bu böyük alim və şəxsiyyətin dövlət və xalq qarşısında xidmətləri layiqincə qiymətləndirilmiş, o, orden və medallarla təltif edilmiş, Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

1990-cı illərin əvvəllərində keçid dövrünün problemləri ilə bağlı elmin inkişafında da ciddi durğunluq və tənəzzül yaşanırdı. Həmin dövrdə bir sıra elmi qurumlar, o cümlədən Zərifə xanımın laboratoriyası da öz fəaliyyətini dayandırmalı olmuşdu. Yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə akademik elmin səviyyəsini və inkişaf tempini artırmağa, elmi tədqiqatların texniki və texnoloji təminatını müasirləşdirməyə zəmin yarandı. Bu müsbət tendensiya Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi dövründə daha da genişləndi və beləliklə, elmin bütün sahələrində olduğu kimi, biotibb sahəsində də geniş spektrli nəzəri-tətbiqi problemlərin, o cümlədən peşə və sosial əhəmiyyətli xəstəliklərin kompleks tədqiqinə, Zərifə xanımdan bizə miras qalmış elmi ideyaların inkişafına geniş imkanlar açıldı. Bu imkanları gerçəkləşdirmək məqsədilə həyata keçirilən islahatlar çərçivəsində AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda Zərifə xanımın laboratoriyasının fəaliyyətini bərpa etmək məqsədilə 2016-cı ildə "Görmənin fiziologiyası" yaradıcı qrupu təşkil edilmişdir. Qrupun əməkdaşları görmə orqanının fiziologiyası və yaşla bağlı patologiyası sahəsində Zərifə xanım tərəfindən əsası qoyulmuş tədqiqatların davamı kimi neyrodegenerativ xəstəliklərlə görmə sistemi strukturları arasındakı mürəkkəb əlaqələri araşdırmağa başlamışlar. Onlar Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə artıq bir beynəlxalq əməkdaşlıq proqramını müvəffəqiyyətlə həyata keçirmişlər. Belarus MEA-nın Fiziologiya İnstitutu ilə birgə icra edilən proqram neyrodegenerativ xəstəliklər zamanı görmə funksiyasının pozulma mexanizmlərinin kliniki-neyrofizioloji tədqiqinə və bu pozulmaların reabilitasiyası üçün innovativ üsulların işlənməsinə istiqamətləndirilmişdir. Sevindirici haldır ki, AMEA Rəyasət Heyətinin 6 aprel 2021-ci il tarixli qərarı ilə bu qrupun bazasında AMEA-nın Fiziologiya İnstitutunun strukturunda Görmə orqanının və neyrodegenerativ xəstəliklərin neyrofiziologiyası laboratoriyası yaradılmışdır.

Zərifə xanım əsl ziyalılığın genetik yaddaşına malik bir insan idi. Ziyalı zəkası onun bilik və təhsilində, ətrafına yaydığı işıqda, zəriflik, təmkin və nəcibliyində, insanlığa və insanlara sevgisində, sevimli peşəsinə və ailəsinə bağlılığında özünü göstərirdi.

Bəşəriyyətin ən qiymətli sərvəti olan xeyirxahlıq, həya və saflıq fani aləmdə əbədiyyəti, daimi mənəvi ucalığı təmin edir. Yüksək mənəviyyata, mərhəmətli, kövrək qəlbə, ən saf mənəvi dəyərlərə sahib olmuş Zərifə xanım Əliyeva həyatı və əməlləri ilə hələ sağlığında müqəddəslik qazanmış bir şəxsiyyətdir. Onun malik olduğu və qazandığı nə varsa, Allah tərəfindən verilmiş nemətlərdir. "Qurani-Kərim"də deyildiyi kimi: "...Həqiqətən, nemət Allahın əlindədir və onu istədiyi şəxsə bəxş edir..."

Peşəkarlığı, sadəliyi, qayğıkeşliyi və səmimiyyəti ilə daim seçilmiş oftalmoloq-alimin ideyaları zaman keçdikcə öz aktuallığını daha da artırır, müstəqil Azərbaycanın davamlı inkişafına və yeni uğurlar qazanmasına real töhfələr verir. Sağlığında olduğu kimi, bu gün də şöhrəti sərhədləri aşan akademik Zərifə Əliyevanın elm, təhsil və səhiyyədə qoyub getdiyi izlər əsla silinməmişdir. Yaratdığı elmi məktəbin nümayəndələri sağlam cəmiyyət naminə çalışmaqla bu gün də insanların gözlərinə işıq verməkdə, müxtəlif peşələrdən olan pasiyentlərin görmə qabiliyyətini bərpa etməkdədirlər.

Bu gün xalqımız zəkası, elmə sədaqəti, yüksək daxili mədəniyyəti, insanlıq qarşısında məsuliyyəti ilə qəlblərə yol tapmış Zərifə xanım Əliyevanı, onun işıqlı obrazını özünün qan yaddaşına əbədi həkk etməklə, parlaq xatirəsini daim ehtiramla anır. Heç şübhəsiz ki, bütün həyatını insanlara, onların gözlərinə və qəlblərinə nur səpməklə kamillik zirvəsini fəth etmiş Zərifə xanım Əliyevanın xeyirxah əməl dəftəri heç zaman bağlanmayacaq, nur çeşməsi əsla qurumayacaq, əziz xatirəsi isə qürur mənbəyimiz kimi dünya durduqca yüksək tutulacaq.

**İradə HÜSEYNOVA,**
***AMEA-nın vitse-prezidenti, akademik***

# Məktublar: problemlər, rəylər, təkliflər...



## Yaxşı işə "sağ ol" deyərlər



**Şimal bölgəsinin qeyri-rəsmi mərkəzi olan Quba gündən-günə abadlaşır, inkişaf edir. Turizm zonası kimi də rayonun əhəmiyyəti böyükdür. Elə ona görə də xüsusən rayon mərkəzində əhalini və qonaqları rahatsız edən problemlər operativ həll olunur.**

Şəhər mərkəzi sayılan Heydər Əliyev prospektindəki köhnə avtovağzalın ətrafı həmişə qələbəlik olur. Əsas ticarət mərkəzləri həmin ərazidə yerləşdiyindən və paytaxt istiqamətinə gedən avtomobillər oradan hərəkət etdiyinə görə, tez-tez qəzalar baş verirdi. Elə gün olmurdu ki, orada piyadaların vurulması halı baş verməsin.

Bir neçə il bundan əvvəl  həmin "dörd yol" ərazisində yolüstü piyada keçidi inşa edildi. Lakin əhali arasında maarifləndirmə işi zəif olduğundan keçiddən istifadə edənlərin sayı az olurdu. İnsanlar çox vaxt həyatlarını təhlükəyə ataraq küçəni keçiddən yox, maşınların sağa-sola şütüdükləri yoldan keçirdilər.

Cari ilin əvvəlində yolüstü piyada keçidi yenidən təmir edilib. Piyadaların həyatlarını təhlükəyə atmamaları üçün hər dörd istiqamətdə yollar xüsusi dəmir qoruyucularla bağlanıb. Üstəlik, hüquq-mühafizə orqanlarının maarifləndirici tədbirləri də güclənib. Artıq heç kəs öz həyatını təhlükəyə atmır, keçiddən istifadə edir. Ötən ilin statistikasına görə, ilin ilk üç ayı ərzində həmin ərazidə piyadaların vurulması ilə bağlı 19 yol hərəkəti qəzası baş vermişdisə, cari ildə həmin yerdə bir dəfə də olsun piyadalarla bağlı heç bir qəza olmayıb. Məhz buna görə keçidi təmir edənlərə və əhalini ondan istifadə etməyə təşviq edənlərə "sağ ol" düşür.

*Qəhrəman QASIMOV,*
*Quba rayonu*

## Şəhid xalqın övladıdır

**Məktəbimizdə Vətən müharibəsi şəhidlərinin xatirəsi həmişə əziz tutulur, ehtiramla yad edilir. Onların həyat yolunun və döyüş fəaliyyətinin daha yaxından öyrənilməsi məqsədilə artıq bir neçə sinfə şəhidlərimizin adları verilib.**

Belə siniflərdən biri məktəbimizin məzunu Qubad Hacıyevin, digəri isə əslən Qubadlı rayonundan olan Fərrux Həşimovun adını daşıyır. Bu yaxınlarda 4[v] sinfinə Aprel şəhidi Nicat İskəndərovun adı verilib.

Bu münasibətlə keçirilən tədbirdə şəhidlərin valideynləri, qazilər, veteranlar, ictimaiyyət nümayəndələri iştirak ediblər. Nicat İskəndərovun anası Maya xanım məktəbin müəllim və şagird kollektivinə minnətdarlığını bildirərək deyib ki, ölkəmizdə şəhid ailələrinə, qazilərimizə daim böyük diqqət göstərilir: "Rayonumuzda da şəhidlərimizin hər birinin xatirəsinin əbədiləşdirilməsi üçün  ardıcıl işlər görülür. Bu səbəbdən də şəhid ailələri heç zaman özlərini tək hiss etmirlər. Əgər əvvəllər bizim övladlarımız yalnız bir ailənin oğlu idisə, indi xalqın övladlarıdır. Biz bunu hər addımda görür və övladlarımızla qürur duyuruq. Arzu edirik ki, bütün uşaqlar sülh və əmin-amanlıq şəraitində böyüsünlər, yaxşı oxusunlar, həyatda qazandıqları uğurları ilə valideynlərini sevindirsinlər".

Sonra məktəbin direktoru İntiqam Nuriyev, 4[v] sinfinin müəllimi Aliyə Balakişiyeva və başqaları çıxış edərək şəhidin qısa, lakin mənalı həyat yolundan danışıblar. Sonda şagirdlərin ifasında şəhidlərimizə həsr olunan şeirlər səsləndirilib.

*Ziyafət RÜSTƏMOVA,*
*Tərtər şəhər 1 saylı tam orta məktəbin direktor müavini*

## Qədirbilən xalqımıza minnətdaram

**Oğlum Azər Yusifli 2011-ci ildə Ağstafanın Böyük Kəsik kənd orta məktəbini bitirdikdən sonra müddətli hərbi xidmətə yollandı. Xidmətini başa vurduqdan sonra könüllü olaraq Sərhəd Qoşunlarında xidmət etməyə başladı. Göstərdiyi nümunəvi xidmətinə görə bir neçə dəfə təşəkkür aldı, "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi" yubiley və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medallarına layiq görüldü.**



2020-ci ilin sentyabr ayının 27-də Vətən müharibəsi başlayanda oğlum  xüsusi təyinatlı kəşfiyyat dəstəsinin tərkibində döyüşlərə atıldı. Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı və Zəngilanın azad edilməsində iştirak etdi. Müharibənin ilk həftəsində yaralanan Azər hospitalda müalicə aldıqdan sonra yenidən döyüş meydanına qayıtdı. Cəbrayıl rayonu azad ediləndə Xudafərin körpüsünün, Zəngilan rayonu azad ediləndə isə Zəngilan Prokurorluğu binasının üstünə üçrəngli Azərbaycan bayrağını asdı. Azər oktyabrın 21-də Zəngilan şəhəri uğrunda gedən döyüşlərdə şəhid oldu. Ölümündən sonra dövlət başçısının sərəncamları ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldü, "Vətən uğrunda"  və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

Hörmətli redaksiya!

Mən qəhrəman oğlumla fəxr edirəm. Qədirbilən xalqımız isə onun ruhuna ehtiram, qısa, lakin mənalı ömür yolunu gənc nəslə nümunə göstərir. Bu gün Böyük Kəsik kənd tam orta məktəbi, eləcə də Ağstafa şəhərinin mərkəzi küçələrindən biri oğlum Azər Yusiflinin adını daşıyır. Bütün bunlara görə Prezident İlham Əliyevə, eləcə də rayon rəhbərliyinə ailəmiz adından minnətdarlığımı bildirirəm.

*Nazim YUSİFOV,*
*Ağstafa rayonunun Ağgöl kəndi*

### Yazdığımıza qayıdırıq

## Qara məni basınca...

**Kütləvi informasiya vasitələrini (sözsüz ki, söhbət peşəkarlardan gedir) cəmiyyətin güzgüsü hesab edənlər haqlıdırlar. Çünki məhz kütləvi informasiya vasitələri dövrün tarixini yazmaqla yanaşı, həm də ətrafda mövcud olan, baş verən neqativ halları ictimailəşdirərək cavabdeh qurumların və şəxslərin diqqətinə təqdim edir.**

Məsuliyyəti olan, üzərinə düşən vəzifənin öhdəsindən gəlməyə çalışanlar tənqiddən nəticə çıxarıb onu aradan qaldırır, işinin yalnız şəxsi maraqlarını təmin etməkdən ibarət olduğunu düşünənlərsə ən müxtəlif yollar və bəhanələrlə, bəzən də şantaja əl atmaqla özlərini təmizə çıxarmaq istəyirlər.

Qəzetimizin 2022-ci il 28 yanvar tarixli nömrəsində Goranboy rayonunun Qızılhacılı qəsəbəsindəki mədəniyyət evində yerləşən kitabxana haqqında "Soyuqda kitabxanaya gələn yoxdur" başlıqlı kiçik replika dərc olunmuşdur. Məzmunu da sərlövhədən göründüyü kimi, ondan ibarət idi ki, kitabxana qızdırılmadığından qış aylarında oxucuların ayağı oradan tamam çəkilir. Bu məsələni ictimailəşdirməkdə məqsədimiz ortadadır - istəmişik ki, kitabxananın təkcə oxucularını yox, həmçinin işçilərini illərdir narahat edən istilik problemi həll olunsun.

Pislik etməmişik ki?!

Amma görün əvəzində kitabxananın müdiri Tamaşa Aslanova tabe olduğu Gəncə Regional Mədəniyyət İdarəsi ilə birləşib redaksiyamızın bu xeyirxah məramını hara yozmağa cəhd etmişdir?! Guya qəzetimizin əməkdaşı sözügedən replikanı təkrar etmək istəmədiyimiz səbəbdən qərəzlə qələmə alıb.

Belə yerdə deyiblər: "Qara məni basınca, mən qaranı basım". Çox təəssüf edirik ki, kitabxananın müdiri T.Aslanova və Gəncə Regional Mədəniyyət İdarəsinin rəhbərliyi qəzetimizin üzə çıxarıb ictimailəşdirdiyi problemin həlli üçün tədbir görmək əvəzinə şantaj və şər yolunu tutmuşlar.

Qoy bizdən inciməsinlər. Kitabxanada istiliyin olmamasını etiraf edən T.Aslanovanın regional idarəyə yazdığı izahatı və regional idarənin həmin etirafı yalan çıxaran redaksiyamıza göndərdiyi cavabı (cavabda bildirilmişdir ki, kitabxana guya 2006-cı ildən təbii qazla təchiz olunur) başqa cür adlandırmaq mümkün deyil.

Amma biz xeyirxahlığımızdan əl çəkmirik. Goranboyun Qızılhacılı qəsəbəsindəki kitabxananın istilik probleminin olmasını bu dəfə Mədəniyyət Nazirliyinin diqqətinə çatdırırıq və güman edirik ki, nazirlik qəzetimizin qaldırdığı həmin problemi həll etməklə, eyni zamanda özünün yerlərdəki məsul işçilərinə nümunə göstərəcək.

*"Azərbaycan"*

## Təhlükə saçan işıq dirəkləri





**Hörmətli redaksiya!**

Sizə müraciət etməyimin səbəbi Biləcəri qəsəbəsi, Rəşid İsmayılov küçəsindəki təhlükəli işıq dirəkləridir. Təhlükə də ondan ibarətdir ki, bu küçədəki işıq dirəklərində kabellərin üstü açıqdır.

Uzun müddətdən bəri davam edən bu təhlükəni ümid edirdim ki, aidiyyəti təşkilatlar aradan qaldırarlar. Təəssüf ki, yanılmışam. İşıq dirəkləri təhlükə yaratmaqda davam edir. Əgər vaxtında tədbir görülməsə, bu dirəklər böyük fəlakətlərə səbəb ola bilər. Onu da qeyd edim ki, belə işıq dirəklərinə qəsəbənin bir çox küçəsində rast gəlmək mümkündür.

*İlham BABAYEV,*
*Bakı şəhəri Biləcəri qəsəbəsi*

## Abşeron yaşıllaşır



**Abşeron rayonunda şəhid ailələrinin, müharibə əlillərinin və Vətən müharibəsi qəhrəmanlarının yaşadığı yeni yaşayış kompleksində iməcilik və ağacəkmə kampaniyası keçirilib.**

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə baş tutan iməcilikdə yerli icra və hüquq-mühafizə orqanlarının işçiləri, YAP Abşeron Rayon Təşkilatının üzvləri, şəhid ailələri, qazilər və rayon sakinləri iştirak ediblər.

İməcilik zamanı kompleksin ətrafı məişət tullantılarından təmizlənib. Sonra 1400-ə yaxın gül kolu, 200-dən çox Eldar şamı, çinar və digər həmişəyaşıl ağaclar əkilib. Əkilən ağaclara üzvi gübrə verilərək suvarılıb, ərazidə mini park-guşələr yaradılıb.

Rayon ərazisində yaşıllıqların salınması və ağacların əkilməsi istiqamətində görülən işlər bundan sonra da davam etdiriləcək.

*Seymur QASIMBƏYLİ,*
*Abşeron rayonu*

## AZƏRBAYCAN-a cavab verirlər

## "Vəsait ayrılacağı təqdirdə yolun əsaslı təmirinə başlanılacaqdır"

**"Azərbaycan" qəzeti redaksiyasının Neftçala Rayon İcra Hakimiyyətinə göndərdiyi 15 fevral 2022-ci il tarixli məktuba baxılmışdır.**

Qəzetdə dərc edilmiş "Biz də rahat yol istəyirik" sərlövhəli məqalədə qeyd olunan rayonun Qaçaqkənd-Qırmızıkənd-Xolqarabucaq-Xəzər kənd avtomobil yolu ilə bağlı bildiririk ki, həmin yolda cari təmir işləri aparılsa da, problemin tam aradan qaldırılmasına nail olunmamışdır. Bu məqsədlə Neftçala Rayon İcra Hakimiyyəti olaraq tərəfimizdən əlaqədar qurumlar qarşısında məsələ qaldırılmış, adıçəkilən avtomobil yolunun əsaslı təmirinin Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramına daxil edilməsi üçün zəruri tədbirlər görülmüşdür. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramı çərçivəsində vəsait ayrılacağı təqdirdə yolun əsaslı təmiri işlərinə başlanılacaqdır.

*Şaiq MƏMMƏDOV,*
*Neftçala Rayon İcra Hakimiyyəti başçısının birinci müavini*

## "Subartezian quyusunun qazılması məsələsinə baxılacaq"

**Şəmkir rayonunun Qədimqala kənd sakini Murad Aslanlı tərəfindən kəndin su problemi barədə "Azərbaycan" qəzetinin redaksiyasına daxil olmuş müraciətə baxılmışdır.**

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Şəmkir Suvarma Sistemləri İdarəsi tərəfindən sorğumuza cavab olaraq göndərilən 11 mart 2022-ci il tarixli məktuba əsasən, Qədimqala kəndinə suvarma suyu mənbəyini Şəmkirçay Su Anbarından götürən 13,8 kilometrlik "Nadirşah" arx kanalı, 6,5 kilometrlik "Muxtariyyə" kanalı və kənddə mövcud olan 15 subartezian quyusu vasitəsilə verilir. Məktubda həmçinin 2021-ci ildən havaların isti və quraq keçməsinə baxmayaraq, suvarma suyunun əhaliyə qrafik əsasında verilərək kənd sakinlərinin tələbatının təmin edildiyi və kənd sakinlərinin öz vəsaitləri hesabına qazmış olduqları subartezian quyusunun balansa götürülməsinin Şəmkir Suvarma Sistemləri İdarəsinin imkanı xaricində olduğu bildirilmişdir.

Nəzərinizə çatdırırıq ki, növbəti illərdə dövlət büdcəsi əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə Şəmkir rayonunda su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması nəzərdə tutularsa, Qədimqala kəndi ərazisində subartezian quyusunun qazılması məsələsinə baxılacaqdır.

Müraciət müəllifinə və kənd sakinlərinə bu barədə müvafiq izahat verilmişdir.

*Aynur ABDULLAYEVA,*
*Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini*

## Kəndimizdə bankomat olsa, pensiyaçıların rahatlığı təmin edilər

**Yaşadığım Quşçu kəndi son 10 ildə tamamilə dəyişib. Kənddə müasir tələblərə cavab verən 360 şagirdlik yeni məktəb binası tikilmiş, kənd uşaq bağçası əsaslı təmir edilmiş, əhalinin içməli su, qaz və elektrik enerjisi ilə fasiləsiz təmin olunması qaydaya salınmışdır.**

Kəndə gələn əsas avtomobil yolunun müasir tələblərə uyğun qurulması, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər də ürəyimizcədir. Xüsusilə "AzerGold" QSC-nin Çovdar filiz emalı sahəsinin Quşçu kənd sakinlərinin böyük əksəriyyətinin daimi işlə təmin olunmasındakı rolunu və ərazidə bir sıra sosial, ekoloji, o cümlədən turizmlə bağlı layihələrin icra edilməsini qeyd etmək istərdim.

Hazırda kənd sakinlərini daha çox narahat edən məsələlərdən biri kənddə bankomatların olmamasıdır. Xüsusilə pensiyalar veriləndə insanlar məcbur olub ya Gəncəyə, ya da rayon mərkəzinə üz tuturlar ki, bu da əlavə vaxt itkisi, əziyyət və xərc deməkdir.

Hörmətli redaksiya!

Xahiş edirik, bu vacib məsələni ictimailəşdirməklə onun həllində bizə kömək göstərəsiniz.



*Dilqəm ƏHMƏDOV,*
*Daşkəsən rayonunun Quşçu kənd sakini*

# Ədəbiyyatımızın Mir Cəlal zirvəsi

Görkəmli Azərbaycan yazıçısı, pedaqoq və alimi Mir Cəlal Paşayevin "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Füzuli sənətkarlığı", "Cəlil Məmmədquluzadənin realizmi haqqında", "Ədəbiyyatşünaslığın əsasları", "XX əsr Azərbaycan ədəbiyyatı" kimi tədqiqat və dərsliklərdən, "Dirilən adam", "Bir gəncin manifesti", "Açıq kitab", "Yolumuz hayanadır?" və başqa əsərlərdən ibarət elmi-ədəbi yaradıcılığı zamanın sınağından üzüağ çıxmışdır. Dəyişən epoxa, yenilənən münasibət və baxışlar bu dəyərli irsdən heç nəyi əskildə bilməmişdir.



İstər ayrı-ayrı cərəyan və üslublar, ədəbi məktəblər və şəxsiyyətlər haqqında yazdığı tədqiqatlar, istərsə də bədii yaradıcılığı öz estetik dəyər və əhəmiyyətini bu gün də mühafizə edib saxlaya bilmişdir.

Mir Cəlal müəllim yazırdı ki, onlarla bir küçədə yaşayan Cavid Əfəndi yorğun və incik vaxtlarında həm yaradıcılıq söhbətləri etmək, həm də gileyini və narazılıqlarını bildirmək üçün özünə həmsöhbət axtardığı axşamlarda tez-tez onlara da qonaq gəlirmiş: "Bir gün gənc şairlərin kitabları haqqında məqalə yazmaq istədiyimi biləndə mənə mühüm məsələlərə üz tutmağı tövsiyə etdi: "Fikir söyləməli daha vacib əsərlər var, elə əsərləri təhlil elə ki, heç olmasa mövzu sənin zəhmətini qoruyub saxlasın. Füzulidən yazanı yazı özü saxlamasa da, Füzuli saxlayacaq". Cavid Əfəndinin tövsiyələrini qəbul edən Mir Cəlal Paşayev Füzulinin poetikasını, sənətkarlığını öyrənməyə, tədqiq etməyə başlayır. Amma ona görə yox ki, alim Mir Cəlal Füzuli sözünün böyüklüyünə sığınmaq istəmişdi. Ona görə ki, irfana və elmə, əqlin və mənəviyyatın gücünə söykənən Azərbaycan poeziyasının, Şərq poetikasının sirlərini öyrənməklə çağdaş ədəbi prosesə, öz qələm dostlarının yaradıcılığına həmin kriteriyalarla yanaşmaqla çoxəsrlik Azərbaycan ədəbiyyatının zəngin ənənələrini, sözün əsrlərdir sahib olduğu enerjini qorumaq istəmişdi. Və sonralar Mir Cəlal müəllimin tələbələri bu gün də füzulişünaslığın uğuru sayılan "Füzulinin poetikası" əsəri haqqında deyirdilər ki, bu tədqiqatdan sonra Füzulinin şair kimi, Mir Cəlal müəllimin alim kimi böyüklüyünün şahidi olduq. Digər tələbəsi Abdulla Abbasov həmin əsəri füzulişünaslıqda ilk kamil mənbə, istinadgah adlandırır. Akademik Həmid Araslı isə bu əsəri tələbələrinə tövsiyə etdiyi ədəbiyyat siyahısının əvvəlində yazdırardı.

Mir Cəlal müəllim bütünlükdə Azərbaycan ədəbiyyatının tarixinə, onun müxtəlif dövrlərinə, ədəbi-nəzəri fikrin problemlərinə aid yüzlərlə elmi məqalənin, "Füzulinin sənətkarlığı", "Cəlil Məmmədquluzadə realizmi haqqında", "Xalq şairi Səməd Vurğun", "Klassiklər və müasirlər", "Yeni şeirin manifesti", "Gülüş bədii silah kimi", "Azərbaycanda ədəbi məktəblər", "XX əsr Azərbaycan ədəbiyyatı tarixi", "Ədəbiyyatşünaslığın əsasları" kimi neçə-neçə monoqrafiya, kitab və dərsliklərin müəllifidir.

O, ədəbiyyatşünaslığın hər üç sahəsi üzrə - istər ədəbiyyat tarixi, istər ədəbiyyat nəzəriyyəsi, istərsə də ədəbi tənqidlə eyni səviyyədə məşğul olmuşdur. Hətta alimlərin əksəriyyəti onun tədqiqatlarında ədəbiyyat tarixçiliyi ilə ədəbiyyat nəzəriyyəsinin qovuşduğunu və yeni bir janrın meydana gəldiyini də söyləyirlər.

"Füzuli qəzəllərinin poetik xüsusiyyətləri", "Füzuli əsərlərinin bədii dili", "Füzuli şeirində peyzaj", "Füzuli poeziyasında bədii və elmi məntiq", Nizami irsinə həsr olunmuş "Yeddi gözəl" haqqında", "Məhəbbət dastanı", "Nizaminin müsbət obrazları", "Əsrlərdən gələn dostluq səsi" məqalələri, həmçinin M.P.Vaqif, M.F.Axundov, M.Ə.Sabir, Ə.Haqverdiyev haqqındakı çoxsaylı tədqiqatları təkcə bu ədəbi şəxsiyyətlərin yaradıcılığına müxtəlif istiqamətdən işıq saldığına görə yox, alimin özündən sonrakı ədəbiyyatşünaslar, tələbələri üçün bir tədqiqatçılıq məktəbi yaratdığı, bir örnək sərgilədiyi üçün qiymətli irsdir.

Mir Cəlal müəllimin klassiklər haqqındakı tədqiqatları, ədəbiyyat nəzəriyyəsinin müxtəlif problemləri, ədəbi üslub və cərəyanlar haqqındakı nəzəri fikirləri, müasirlərinin yaradıcılığına dair mülahizələri, tövsiyələri ona görə etibarlı, obyektiv və əsaslı idi ki, o həm də yazıçı idi. O, yaradıcılıq prosesinin bütün incə və sirli məqamlarına yaxından bələd olduğuna görə ədəbiyyat, onun estetikası haqqında bu gün də, sabah da istinad olunacaq dəyərli fikirlər söyləmişdir.

Mir Cəlalın 1905-1917-ci illəri əhatə edən "Azərbaycanda ədəbi məktəblər" əsəri XX əsrin ədəbi mühitini, həmin illərin ədəbi proses və mərhələlərini öyrənmək, bütövlükdə ədəbiyyatın inkişaf xətləri və meyillərini təyin etmək baxımından xüsusi əhəmiyyətə malikdir. Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Nəriman Nərimanov, Əliqulu Qəmküsar, Firudun bəy Köçərli, Abdulla bəy Divanbəyoğlu, Abdulla Şaiq, Sultan Məcid və digər sənətkarları tədqiqata cəlb etməklə əksəriyyəti haqqında ilk fikirlər demişdir. Böyük bir hissəsi İkinci Dünya müharibəsi zamanı yazılan "Azərbaycanda ədəbi məktəblər" doktorluq dissertasiyasının müqəddiməsində ədib bu əsərin asanlıqla yazılmadığını vurğulayır, həyat və yaradıcılıqları tədqiqata cəlb olunan müəlliflərin irsinin, bir çox mənbələrin əldə edilməsi ilə bağlı üzləşdiyi çətinlikləri xatırlayır.

Mir Cəlal "şair və ədiblər təhsilli, savadlı olmalıdır" deyəndə təkcə məktəb təhsilini, diplomu yox, həm də həyat dərsini nəzərdə tuturdu, məktəb partasından birbaşa Yazıçılar Birliyinin vəsiqəsinə yiyələnməyə etiraz edirdi. Səməd Vurğunun "Vaqif", "Fərhad və Şirin", "Komsomol poeması" kimi əsərlərinin, Mirzə İbrahimovun "Gələcək gün", Əbülhəsənin "Müharibə", Mehdi Hüseynin "Abşeron" və "Səhər" romanlarının, Cabbarlının yaradıcılığının, Süleyman Rəhimovun canlı lövhələr, real çarpışmalar yaratmasının səbəbini o, müəlliflərin məhz həyatı dərindən bilmələri, xalqın mübarizə tarixinə, adət-ənənəsinə, zəngin və bədii dilinə, həyat tərzinə dərindən bələd olmaları ilə izah edirdi. Ədəbiyyata gələn gənclərin yaradıcılığına yüksək tələbkarlıqla yanaşan ədəbiyyatşünas alim onlara həm klassik irsi, həm də dünya ədəbiyyatının zəngin təcrübəsini öyrənməyi tövsiyə edirdi. Sadəcə ədib, dramaturq, şair olmağı deyil, işinin sənətkarı olmağı məsləhət görürdü. "Ədəbiyyatda "bulanıq axın" deyilən yazılara oxucu dözmür, yaxşı eləyir ki, dözmür" deyən yazıçı gənc ədəbi nəslin yaradıcılığına öz əsərlərinə tələbkar olduğu qədər prinsipiallıqla yanaşırdı.

Ədibin klassik nəsrin əsas janrı hesab etdiyi hekayə haqqında məntiqli, gözəl fikirləri var. Mir Cəlala görə, yaxşı, ustalıqla yazılmış hekayəni oxucuya əlavə yüksüz təqdim etmək lazımdır. Ədib bununla sanki oxucuyla müəllifi o hekayənin mətləbi, ideyası, sənətkarlığı ilə baş-başa qoymaq istəyirdi. Bəzən ya eyni müəllifə, yaxud müxtəlif yazıçılara aid 50-60 hekayənin bir yerdə dərc edilib oxucunun, ədəbi ictimaiyyətin ixtiyarına verilməsini məqbul hesab etmirdi. "Nə üçün "Usta Zeynal", "Şeyx Şaban", "Qurbanəli bəy" müstəqil yaşayırdı, amma "Su ərizəsi", "Hop-hop", "Şəhərdən gələn ovçu", "Buz heykəl", "Atəş oğlu", "Şirin bülbül", "Xəzan yarpaqları", "Arabaçı" yaşamasın?" Və bəzən tənqidçilərin də o hekayələri fərdi yanaşma ilə yox, "topdan təhlil" etməsinə etiraz edir, belə münasibəti hekayə janrına etinasızlıq kimi dəyərləndirirdi. Halbuki hekayəni həm ədəbiyyatın inkişafındakı roluna, həm oxucuya bədii informasiyanı daha çevik ötürdüyünə görə vacib janr hesab edirdi.

Ənvər Məmmədxanlının, İlyas Əfəndiyevin, Sabit Rəhmanın, Əli Vəliyevin, Salam Qədirzadənin, Ələviyyə Babayevanın, Mikayıl Rzaquluzadənin, Yusif Səmədoğlunun, Firudin Ağayevin hekayələrinin adını çəkir, artıq sözünü demiş böyük sənətkarların bu janra müraciətlərini fədakarlıq kimi qiymətləndirirdi.

Əsərin dilindən sadəlik və təbiilik, xalq dilindən gələn şirinlik, rəngarəng ifadələr, müxtəlif ədalı ibarələr, bədii suallar, bədii təkrarlar tələb edən yazıçı bütün bunları bədii ustalığın şərtləri kimi vurğulayır, əsərin ideyasının anlaşılmasında hər kəlmənin, hər vurğunun öz yeri olduğunu söyləyirdi. Qələm yoldaşlarının yaradıcılığına yüksək tələbkarlıqla yanaşan ədib güclü müşahidə bacarığı olan Əbülhəsənin əsərlərinin dilini dolaşıq və ağır hesab edir, istedadlı şair Məmməd Rahim, Süleyman Rüstəm, Əhməd Cəmilin belə bəzən şeirlərində uğursuz, yad ifadələrin işləndiyini nümunələrlə göstərir və tövsiyələrini verirdi. Ədibin tələbəsi Pənah Xəlilov müasirlərinin bu tənqidi fikirlərə münasibəti haqqında yazırdı: "Mir Cəlal müəllimin obyektivliyi elə meyar idi ki, onun tənqidindən inciyən olmurdu".

Mir Cəlal müəllim müxtəlif sənət məsələlərinə dair konseptual fikirlər yürütməklə, klassiklər haqqında tədqiqatlar aparmaqla yanaşı, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Mirzə İbrahimov, Osman Sarıvəlli, Səməd Mənsur kimi müasirlərinin və o illər gənc ədəbi nəslin nümayəndələri olmuş Əli Kərim, Bəxtiyar Vahabzadə, Musa Yaqub, Nəbi Xəzri, Xəlil Rzanın əsərləri haqqında da obyektiv, istiqamətverici, yüksək nəzəri təhlil xarakterli mülahizələr söyləmişdir.

Elə bir sənət müzakirəsi, elə bir mübahisə doğuran ədəbi məqam yox idi ki, Mir Cəlal müəllim ondan danışanda Səməd Vurğun yaradıcılığını nümunə göstərməsin. Ədib yazır: "Orduda belə bir qayda var: şəhid olan nadir qəhrəmanın adı hissənin siyahısında hər səhər yoxlama zamanı başda çəkilir. Ədəbiyyat ordumuzun işində də müasir şeirimizin qəhrəmanı Səməd Vurğun buna bənzər şərəfli bir yer tutmuşdur. Elə bir ədəbi məsələ, müzakirə olmaz ki, orada Səmədin rəyi və fikri hesaba alınmasın".

"Vaqif" dramını Vurğun yaradıcılığının ən yüksək nümunəsi kimi qiymətləndirən yazıçı həm əhatə etdiyi məsələlərə, həm şeiriyyətinə görə Azərbaycan ədəbiyyatında müstəsna şöhrət qazanmış əsər kimi dəyərləndirirdi. Mirzə Cəlilin "Anamın kitabı"ndan, Cabbarlının "Od gəlini"ndən sonra xalq taleyi və istiqlaliyyəti uğrunda gedən mübarizəni xüsusi bir qüdrətlə əks etdirən və bu yolda kütlələri səfərbərliyə ala bilən ən böyük əsər hələ ki, "Vaqif" dir", - deyə Mir Cəlal müəllim yazırdı. Əsər Mir Cəlal müəllim üçün ona görə dəyər kəsb edirdi ki, xalqın istək və arzusu, duyğu və düşüncəsi böyük bir şəxsiyyətin, sənətkarın simasında əks olunurdu.

Görkəmli yazıçı Mir Cəlal Mehdi Hüseynin ədəbiyyatın, xüsusilə bədii nəsrin inkişafındakı rolunu xüsusi qiymətləndirir, onun sadə insanların təkcə şəxsi həyatını deyil, ictimai taleyini, vətəndaşlıq bioqrafiyasını önə çəkdiyini yüksək dəyərləndirirdi. Mehdi Hüseynin üslubunu həm klassik ənənələri, həm müasir ədəbiyyatın ictimai həyatla bağlılığından qaynaqlanan müsbət keyfiyyətləri birləşdirən özünəməxsus üslub hesab edirdi. Yazıçının istər şəhər, istərsə də kənd həyatından yazarkən ədəbiyyatın ideallarına sadiq qaldığını göstərir və bunu təkcə onun biliyi ilə deyil, bədii məntiqinin gücü, yazıçı mədəniyyəti, dil və fikir aydınlığı ilə izah edirdi. Mehdi Hüseynin təkcə nəsr yaradıcılığı haqqında deyil, səhnə əsərlərinə də fikir bildirir, eyni zamanda onu istedadlı ədəbiyyatşünas adlandırırdı. Onun həm müxtəlif ədəbiyyat məsələləri haqqındakı elmi mühakiməyə, analizə söykənən, həm də oxunaqlı olan nəzəri irsinə münasibət bildirir, elmi tənqidi mülahizələrini dəyərli alim fikri hesab edirdi.

Mir Cəlal Paşayev gündəlik işində də, auditoriyada da, yaradıcılıq masası arxasında da, mətbuat səhifələrində də, xitabət kürsüsündə də ədəbiyyatın və sənətin, özünün ideallarına sadiq qalan şəxsiyyət idi. Görkəmli yazıçı həm tələbələri, həm söz adamları, həm də xalqın yaddaşında əbədi iz qoymuşdur.

*Aygün BAĞIRLI,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent*

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi "Azərbaycanda ilk model müəssisədə qənaətli iş modellərinin tətbiqinə dair praktiki təlim və məsləhət xidmətləri"nin satın alınması üzrə təkliflər sorğusunu elan edir

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün bu sahədə ixtisaslaşmış potensial malgöndərənlər (podratçılar) dəvət olunur. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Sorğuda iştirak etmək istəyən malgöndərənlər (podratçılar) LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təklifləri Tender komissiyasına təqdim edə bilərlər.

**İştirak haqqı: 450,00 (dörd yüz əlli) AZN**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:**
**Təşkilatın adı:**
**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri:**
**"Kapital Bank" ASC-nin Mərkəzi filialı**
**Hh: AZ16AIIB38060029440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T. AIIBAZ2X**

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün ödənilən iştirak haqqı heç bir halda geri qaytarılmır. Sorğuda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *İddiaçının nizamnaməsinin surəti (əslinin və ya notarial qaydada təsdiq olunmuş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Hüquqi statusunu təsdiq edən sənədlər (dövlət reyestrindən çıxarışın və şəhadətnamənin əslinin və ya notarial qaydada təsdiq olunmuş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Rekvizitlər - Bank tərəfindən təsdiq edilmiş bank hesabı, hüquqi və faktiki ünvanı təsdiq olunmuş şəklində əlavə edilməsi zəruridir (iddiaçının və ya bankın imzası və möhürü ilə təsdiq edilməsi və PDF formatında yerləşdirilməsi zəruridir);*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı. Bank hesabından çıxarış təqdim edildiyi halda çıxarışın hər bir səhifəsi bankın möhürü ilə təsdiq edilməlidir (sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təklifin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *İddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatı (son maliyyə dövrünə olan məlumatı əks etdirməsi və sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış. Arayış elektron formada əldə olunduğu zaman həmin arayışın notarial qaydada təsdiq olunması mütləqdir (sənədin əslinin və ya notarial qaydada təsdiq edilmiş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış. Arayış elektron formada əldə olunduğu zaman həmin arayışın notarial qaydada təsdiq olunması mütləqdir (sənədin əslinin və ya notarial qaydada təsdiq edilmiş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması (müvafiq icra hakimiyyəti orqanından alınmış sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması - (Əsas şərtlər toplusunun məlumat xəritəsinə əlavə meyarlar hissəsində tələb olunan meyarlar üzrə müvafiq göstəricilər və təqsdiqedici sənədlər əlavə olunmaqla, iddiaçı tərəfindən təsdiq olunmuş arayış formasının əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması - Direktorun təyin edilməsi haqqında əmrin və ya qərarın surəti əlavə edilməlidir (sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması haqqında arayış. Arayış elektron formada əldə olunduğu zaman həmin arayışın notarial qaydada təsdiq olunması mütləqdir (sənədin əslinin və ya notarial qaydada təsdiq edilmiş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması. Arayış elektron formada əldə olunduğu zaman həmin arayışın notarial qaydada təsdiq olunması mütləqdir (sənədin əslinin və ya notarial qaydada təsdiq edilmiş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları Satınalan Təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir. İddiaçılar sorğuda iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri, tender təklifi və bank təminatı sənədlərini 18 may 2022-ci il saat 11:00-dək təqdim etməlidirlər. İddiaçıların təklifləri 19 may 2022-ci il saat 11:00-da AZ 1069, Bakı şəhəri, Mustafa Kamal Atatürk pr. 134 ünvanında açılacaqdır. Tel: (012) 404 04 01, email: info@smb.gov.az Faks nömrəsi: (012) 404 04 03.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi "Azərbaycanda ilk model müəssisədə istifadə olunacaq avadanlıqların alınması, quraşdırılması və texniki servis xidmətləri"nin satın alınması üzrə təkliflər sorğusunu elan edir

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün bu sahədə ixtisaslaşmış potensial malgöndərənlər (podratçılar) dəvət olunur. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Sorğuda iştirak etmək istəyən malgöndərənlər (podratçılar) LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təklifləri Tender komissiyasına təqdim edə bilərlər.

**İştirak haqqı: 450,00 (dörd yüz əlli) AZN**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:**
**Təşkilatın adı:**
**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri:**
**"Kapital Bank" ASC-nin Mərkəzi filialı**
**Hh: AZ16AIIB38060029440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T. AIIBAZ2X**

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün ödənilən iştirak haqqı heç bir halda geri qaytarılmır. Sorğuda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *İddiaçının nizamnaməsinin surəti (əslinin və ya notarial qaydada təsdiq olunmuş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Hüquqi statusunu təsdiq edən sənədlər (dövlət reyestrindən çıxarışın və şəhadətnamənin əslinin və ya notarial qaydada təsdiq olunmuş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Rekvizitlər - Bank tərəfindən təsdiq edilmiş bank hesabı, hüquqi və faktiki ünvanı təsdiq olunmuş şəklində əlavə edilməsi zəruridir (iddiaçının və ya bankın imzası və möhürü ilə təsdiq edilməsi və PDF formatında yerləşdirilməsi zəruridir);*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı. Bank hesabından çıxarış təqdim edildiyi halda çıxarışın hər bir səhifəsi bankın möhürü ilə təsdiq edilməlidir (sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təklifin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *İddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatı (son maliyyə dövrünə olan məlumatı əks etdirməsi və sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış. Arayış elektron formada əldə olunduğu zaman həmin arayışın notarial qaydada təsdiq olunması mütləqdir (sənədin əslinin və ya notarial qaydada təsdiq edilmiş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış. Arayış elektron formada əldə olunduğu zaman həmin arayışın notarial qaydada təsdiq olunması mütləqdir (sənədin əslinin və ya notarial qaydada təsdiq edilmiş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması (müvafiq icra hakimiyyəti orqanından alınmış sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması - (Əsas şərtlər toplusunun məlumat xəritəsinə əlavə meyarlar hissəsində tələb olunan meyarlar üzrə müvafiq göstəricilər və təqsdiqedici sənədlər əlavə olunmaqla, iddiaçı tərəfindən təsdiq olunmuş arayış formasının əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması - Direktorun təyin edilməsi haqqında əmrin və ya qərarın surəti əlavə edilməlidir (sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması haqqında arayış. Arayış elektron formada əldə olunduğu zaman həmin arayışın notarial qaydada təsdiq olunması mütləqdir (sənədin əslinin və ya notarial qaydada təsdiq edilmiş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması. Arayış elektron formada əldə olunduğu zaman həmin arayışın notarial qaydada təsdiq olunması mütləqdir (sənədin əslinin və ya notarial qaydada təsdiq edilmiş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları Satınalan Təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir. İddiaçılar sorğuda iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri, tender təklifi və bank təminatı sənədlərini 18 may 2022-ci il saat 11:00-dək təqdim etməlidirlər. İddiaçıların təklifləri 19 may 2022-ci il saat 11:00-da AZ 1069, Bakı şəhəri, Mustafa Kamal Atatürk pr. 134 ünvanında açılacaqdır. Tel: (012) 404 04 01, email: info@smb.gov.az Faks nömrəsi: (012) 404 04 03.

***Tender komissiyası***

## "Azərenerji" ASC müxtəlif növ xüsusi təyinatlı nəqliyyat vasitələrinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Azad Məmmədov, telefonlar: 490-09-27, 598-05-56; e-mail: **azad.mammadov@azerenerji.gov.az**).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət və iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *mallar sifariş verildiyi vaxtdan sonra ən çoxu 30 gün müddətinə çatdırılmalıdır;*
- *iddiaçının analoji satınalmalarda təcrübəsi haqqında məlumat;*
- *iddiaçının son 3 (üç) illik iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
- *müvafiq sertifikatlar və lizensiyalar.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 03 iyun 2022-ci il saat 15:00-a qədər, bank təminatını və tender təkliflərini isə 13 iyun 2022-ci il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 14 iyun 2022-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır. Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***






